26 sentyabr Ümumxalq səsverməsi – Referendum günüdür

GÜNDOĞAR

18 sentyabr 2016-cı il – № 26-27 (6613) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

DÖVLƏT BAŞÇISININ GÖRDÜYÜ TƏDBİRLƏR ÖZ BƏHRƏSİNİ VERİR

"Şahdəniz-2" layihəsi göstərdi ki, Azərbaycan böyük işləri həyata keçirməyə qadirdir

Gələn ay müstəqilliyimizin bərpasının 25 ili tamam olur. 25 ildir ki, Azərbaycan müstəqil ölkə kimi inkişaf edir, möhkəmlənir, bir-birindən möhtəşəm uğurlara imza ataraq dünyanın diqqətini özünə cəlb edir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında imzalanaraq ölkəmizin işıqlı gələcəyini təmin edən ilk möhtəşəm layihədən — "Əsrin müqaviləsi"ndən sonra bu layihənin davamı olaraq çıxarılacaq neftin və qazın dünya bazarına nəqli üçün Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum ixrac boru kəmərlərinin reallaşdırılması bu dahi insanın dediyi kimi çoxlarının nağıl, əfsanə hesab etdiyi bu çətin, mürəkkəb işin həqiqətə çevrilməsi idi. Sonrakı illərdə dünya xalqımız, millətimiz üçün həyati əhəmiyyət daşıyan daha möhtəşəm layihələrin şahidi oldu.

Bir neçə gün bundan qabaq Azərbaycan beynəlxalq ictimaiyyətin, dünyanın diqqətini yenidən özünə cəlb etdi. Xəzərin sahilində yerləşən Bakı Dərin Özüllər Zavodunun yanalma körpüsünə yaxınlaşan STB-1 daşıma barjı Şahdəniz yatağında quraşdırılaraq yeni platformanın əsas hissələrindən birini — dayaq blokunu dənizə apardı. Bu möhtəşəm işin reallaşmasına, gerçəkləşməsinə görə biz ilk növbədə ümummilli lider möhtərəm Heydər Əliyevə minnətdarıq. Ona görə ki, ötən əsrin 70-80-ci illərində bu nəhəng zavod ulu öndərin şəxsi təşəbbüsü, səyilə həyata vəsiqə almışdı.

"Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edən Prezident İlham Əliyev bu münasibətlə Azərbaycan xalqını ürəkdən təbrik edərək dedi: "Bu gün yola saldığımız dayaq bloku göstərir ki, Azərbaycan böyük işləri görməyə qadir ölkədir. Sevindirici hal ondan ibarətdir ki, bu dayaq bloku və platformanın üst tikilileri 100 faiz Azərbaycanda inşa edilir. Bu nəhəng qurğuların inşasında işləyənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu da "Əsrin kontraktı"nın nəticəsidir... "Şahdəniz-2" layihəsi təkcə Azərbaycan üçün deyil, bütün region, Avropa üçün böyük əhəmiyyət daşıyan bir layihədir."

Dövlətimizin başçısı diqqəti yenidən bütün uğurlarımızın bünövrəsinin "Əsrin kontraktı"ndan başlandığına yönəldərək əlavə etdi: "Əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin kontraktı" imzalanmasaydı, bu gün təsəvvür etmək mümkün deyil ki, Azərbaycan hansı vəziyyətdə ola bilərdi. Ölkəmizdə görülən quruculuq-abadlıq işlərinin, dayanıqlı iqtisadiyyatımızın, böyük valyuta ehtiyatlarımızın əsas mənbəyi Əsrin kontraktıdır... Bu gün Azərbaycan bütün dünya xəritəsində etibarlı tərəfdaş, hörmətə layiq ölkə kimi tanınır. Biz bütün öhdəlikləri yerinə yetiririk, xarici sərmayədarlar üçün yaxşı şərait yaratmışıq. Onların sərmayələri qanun çərçivəsində qorunur. Əgər bu olmasaydı, heç kim Azərbaycana milyardlarla, on milyardlarla dollar sərmayə qoymazdı... Şadam ki, indi nəinki neft-qaz sektoruna, digər sektorlara yerli, xarici sərmayələr qoyulur. Bütün bu işlərin təməli 1994-cü il sentyabrın 20-də qoyulmuşdu".

"Şahdəniz-2" layihəsinin uğurları qabaqdadır. Burada işlər ardıcıllıqla davam edir. Hazırda mühəndis-layihə, təchizat-tədarük və tikinti işlərinin ümumilikdə 77 faizi artıq başa çatıb. Onu da deyək ki, bu layihə çərçivəsində ildə 16 milyard kubmetr qaz və gündə 120 min barelədək kondensat hasil edilməyi gözlənilir. Hasil olunacaq qazın 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya çatdırılacaqdır. Prezident İlham Əliyev dedi: "Görülən bütün bu işlərin məqsədi budur: Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın, ölkəmizin iqtisadi müstəqilliyi daha da möhkəmlənsin və dünyada rolumuz, əhəmiyyətimiz artsın... Bu günkü mərasim çox rəmzi xarakter daşıyır. Bu, görülən işlərin bariz nümunəsidir. Azərbaycan vətəndaşları bu böyük, nəhəng işləri xarici tərəfdaşlar, xarici sərmayədarlar ilə birlikdə görürlər. Hər bir vətənpərvər Azərbaycan vətəndaşı bununla fəxr edir."

Bəli, doğrudan da fəxr edirik, qürurlanırıq. Sevinirik ki, "Şahdıniz-2" layihəsini uğurla həyata keçirən Azərbaycan böyük, nəhəng işləri görməyə qadir ölkədir. Amma çox təəssüf ki, uğurlarımızdan xoflanan bədxahlarımız da az deyil. Bələləri o vaxt da var idi, bu gün də var. "Şahdəniz-2" kimi layihənin uğurla reallaşdırılması onlara ağır zərbə oldu. Vaxtı ilə bu layihənin perspektivliyini görmək istəməyənlər, indi işıqlı nəticə ilə hesablaşmalı olurlar. Bax, bu əsl qələbədir, real qələbə. Dövlət başçısı İlham Əliyevin dediyi kimi "Şahdəniz" layihəsi olmasaydı heç kim "Abşeron" layihəsinə, "Ümid" yatağına sərmayə qoymazdı. Kim 3500 kilometrlik qaz kəmərini çəkərdi?! Kim 45 milyard dollar pul qoyardı?! Yəqin ki, heç kim. Amma bu gün xarici sərmayədarlar təkcə neft-qaz layihələrində deyil, digər layihələrin həyata keçirilməsində də tərəfdaşlıq etməyə hazırdırlar.

Bu, əsl qələbədir, parlaq qələbə. Daha böyük qələbələrimiz isə hələ qabaqdadır.

Prezident İlham Əliyevin sədrliyilə Sabirabadda keçirilən respublika müşavirəsindən sonra bir daha aydın oldu ki, ölkəmizdə "ağ qızıl"ın ağ günləri başlayır

Ölkəmizin uğurlarını təmin edən başlıca amil dövlətimizin başçısı cənab İlham Əliyevin zamanın, dövrün tələbləri ilə bağlı çevik siyasət yeritməsi, lazımi məqamlarda konkret qərarlar qəbul etməsi, həmin qərarların yerinə yetirilməsi ilə əlaqədar ardıcıl tədbirlərin həyata keçirilməsidir. İlin əvvəlindən başlayan yeni islahatlar kursu da bu zərurətdən irəli gəlmişdi. İqtisadiyyatın ayrı-ayrı sahələrini əhatə edən bu kursda aqrar sahəyə diqqətin artırılması xüsusilə mühüm tələb kimi qarşıya qoyulmuşdu. Bu heç də təsadüfi deyildi. Azərbaycanın bu sahədə, xüsusilə pambıqçılıqda çox zəngin təcrübəsi vardı. Ötən əsrin 70-ci illərində respublikamızda pambıq istehsalının 1 milyon tonu ötməsi rekord göstərici idi.

Müstəqilliyimizdən sonra "qara qızıl" adlandırdığımız neft ölkəmizin, xalqımızın həyatında hansı rolu oynayıbsa, o vaxt "ağ qızıl" adlandırdığımız pambıq da həmin önəmi kəsb etmişdi. Adamlar kütləvi şəkildə istehsal etdikləri bu strateji məhsulun hesabına çox varlanmışdılar, kəndlərimizin, yaşayış məntəqələrimizin siması xeyli dərəcədə dəyişmişdi. Yaşlı insanlar ulu öndər Heydər Əliyevin bu sahənin inkişafı ilə bağlı gördüyü tədbirləri, insanlarla səmimi görüşlərini, söhbətlərini bu gün də böyük məhəbbətlə xatırlayırlar.

Amma çox təəssüf ki, uzun illər kənd adamlarının məşğulluğunu təmin edən, onlara böyük gəlirlər gətirən pambıq istehsalı getdikcə azalmağa başladı. Bunun əsas səbəblərindən biri dünya bazarında pambığın satınalma qiymətinin aşağı düşməsi, ona olan tələbatın xeyli dərəcədə azalması idi. Şübhəsiz, vəziyyət belə davam edə bilməzdi. Etmədi də. İlin əvvəlindən başlayan yeni islahatlar aqrar sahənin, o cümlədən pambıqçılığın inkişafına da yeni təkan verdi. Qərara alındı ki, 2016-cı ildə pambığın satınalma qiymətləri artırılaraq birinci növün hər tonu üçün 500, ikinci növ üçün 470, üçüncü növ üçün isə 440 manat müəyyənləşdirilsin. Halbuki, əvvəlki ildə bu rəqəm müvafiq olaraq 410, 390 və 370 manat idi. Dövlətin pambıqçılığın inkişafına verdiyi önəm, göstərilən qayğı və diqqət təsirsiz qalmadı. Fermerlər, kənd adamları torpaq sahələrinin xeyli hissəsini pambıqçılıq üçün ayırdılar və tarlalarda bol məhsul yetişdirməyə nail oldular. Bu il ölkə üzrə ən azı 100 min ton pambıq tədarük olunması nəzərdə tutulur. Ona görə də indi respublikamızın bütün pambıqçılıq rayonlarında qızğın iş gedir. Bütün qüvvələr böyük zəhmət bahasına yetişdirilən qiymətli məhsulun vaxtında yığılaraq tədarük olunmasına səfərbər olunmuşdur.

Belə qayğılı günlərdə, sentyabrın 17-də pambıqçılığın inkişafı məsələlərinə dair Prezident İlham Əliyevin sədrliyi ilə Sabirabadda keçirilən respublika müşavirəsi məsələnin aktuallığını bir daha ortaya qoydu. Müşavirədəki parlaq nitqində bu sahənin inkişafı ilə bağlı dövlətin prioritetlərini elan edən Prezident İlham Əliyev dedi: "Bu bir başlanğıcdır və əminəm ki, bundan sonra pambıqçılıq Azərbaycanda sürətlə inkişaf edəcək, geniş vüsət alacaq."

Bununla yanaşı dövlət başçısının pambıqçılarla görüşməsi, onlarla səmimi söhbət etməsi bu sahədə çalışan zəhmət adamlarına yeni stimul verdi. Tarlada gedən canlı söhbətdə dövlət başçısı ilə yanaşı pambıqçılar da öz fikirlərini, təkliflərini bildirdilər. Bir çox məsələlərə elə yerindəcə aydınlıq gətirildi. Görüşün sonunda Prezident İlham Əliyevlə birlikdə çəkdirilən xatirə şəkli zəhmət adamları üçün o xoş, unudulmaz gündən unudulmaz yadigar oldu.

Ötən əsrin 70-80-ci illərinin pambıq istehsalında, pambıq yarışmasında Neftçala, neftçalalılar da öz sözlərini demişdilər. Həmin illərdə rayonda 40 min tondan artıq pambıq istehsal olunması çox yüksək göstərici idi. 1979-cu il may ayının 30-da möhtərəm Heydər Əliyevin özünün qurub yaratdığı, qayğısına qaldığı Neftçalaya böyük sevinclə gəlməsi də bununla bağlı idi. Ulu öndər qısa müddət ərzində Neftçala rayonunda görülən işlərdən, qurulub yaradılanlardan, iqtisadiyyatın bütün sahələri kimi kənd təsərrüfatında, o cümlədən pambıqçılıqda əldə olunan parlaq nəticələrdən çox razı qaldı. O vaxtkı N.Nərimanov adına rayon mədəniyyət sarayında keçirdiyi işgüzar müşavirədə rayon sakinlərinin əməyinə, zəhmətinə çox yüksək qiymət verən bu dahi insan neftçalalıları daha böyük qələbələrə ruhlandırdı.

Aradan uzun illər keçəndən sonra bu dəfə pambıqçıların görüşünə ulu öndərin işıqlı yolunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev gəlmişdi. Bu gün dövlət başçısının pambıqçılarla Salyan rayonundan başlayan səmimi görüşləri, yəqin sabah digər rayonlarda da uğurla davam edəcəkdir. Belə səmimi, işgüzar görüşlər isə kənd adamlarının fəallığını durmadan artıracaq, onlar yeni-yeni qələbələrə imza atacaqlar. İnanırıq ki, bu parlaq qələbələrdə, zəfərlərdə Neftçalanın, neftçalalıların da öz layiqli zəhmət payları olacaqdır. Necə ki, olmuşdu.

İLHAM ƏLİYEV AZƏRBAYCANIN ALTERNATİVSİZ SEÇİMİDİR

ABŞ və Fransa sorğu mərkəzlərinin rəyinə görə, ölkə əhalisinin mütləq əksəriyyəti Prezidentin fəaliyyətini və Konstitusiya islahatlarını tam dəstəkləyir:

96% - prezident kimi İlham Əliyev öz vəzifəsini uğurla icra edir;

82% - ölkədə siyasi sistemin fəaliyyəti düzgündür;

93% - Azərbaycanda həyata keçirilən proseslər düzgün istiqamətdədir;

92,8% - Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verir;

82,9% - referendumda iştirak edəcək;

92,8% - Konstitusiya islahatlarının lehinədir;

87% - Əsas Qanuna təklif edilən əlavə və dəyişikliklər zəruridir;

88% - dəyişikliklər müvafiq sahələrin inkişafına müsbət təsir göstərəcək;

95% - referendum barədə tam məlumatlıdır;

91,4% - ölkədə inkişaf meyli var;

98,4% - ölkə rəhbərliyi xalqı terror aktlarından tam qoruyur;

95,9% - dünyada qeyri-sabit vəziyyət olduğu halda Azərbaycan regionda ən sabit ölkədir...

Əziz neftçalalılar, sentyabrın 26-da səsvermə məntəqələrinə gəlin, səsinizi verin!

Konstitusiyamıza ediləcək əlavə və dəyişikliklərlə əlaqədar ümumxalq səsverməsinin — referendumun keçirilməsi indi qarşıda duran ən mühüm vəzifələrdəndir. Bununla əlaqədar dövlətimizin başçısı cənab İlham Əliyev 26 iyul 2016-cı il tarixli sərəncamını imzalamışdır. O vaxtdan başlayaraq ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da mühüm tədbirə çox geniş hazırlıq işləri görülür. 61 saylı Neftçala Dairə Seçki Komissiyası Mərkəzi Seçki Komissiyasının 27 iyul 2016-cı il tarixli qərarı ilə təsdiqlənmiş ümumxalq səsverməsinin (referendumun) hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planında nəzərdə tutulmuş tədbirləri, işləri ardıcıllıqla yerinə yetirməkdədir.

Rayon ərazisindəki bütün məntəqələr qaydaya salınmış, onlar müvafiq avadanlıqlarla, ləvazimatlarla təmin olunmuş, telefonlaşdırılmışdır. Məntəqə seçki komissiyalarının yerləri, komissiyaların əhatə etdiyi ərazilər dəqiqləşdirilərək bu barədə rayonda çıxan "Gündoğar" qəzeti vasitəsilə rayon sakinlərinə dəqiq və ətraflı məlumat verilmişdir. Seçici siyahılarının dəqiqləşdirilməsi başa çatsa da, bu mühüm iş bu gün də diqqət mərkəzindədir.



Ümumxalq səsvermələrinin, referendumların keçirilməsində təşviqatların rolu xüsusilə böyükdür. Vətəndaşlar məhz təşviqat kampaniyaları dövründə onları maraqlandıran suallara cavablar tapa bilirlər. Bu məsələ Konstitusiyamıza ediləcək əlavə və dəyişikliklərlə bağlı aparılan təşviqatın da əsasını təşkil edir, onların mahiyyəti, bu əlavə və dəyişikliklərin nəyə xidmət edəcəyi seçicilərlə keçirilən görüşlərdə hərtərəfli izah olunaraq aydınlaşdırılır. Kütləvi izahat işlərini gündən-günə genişləndirən təşviqat qrupu üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Bu iş nəzərdə tutulmuş vaxta kimi ardıcıllıqla davam etdiriləcəkdir.

Artıq səsvermə məntəqələri seçiciləri qəbul etməyə hazırdır. Məntəqələr şəffaf seçki qutuları və digər lazımi, zəruri avadanlıqlarla təmin edilmiş, hər birində səliqəli kabinetlər qurulmuşdur. Seçkilərin gedişini izləmək üçün xarici müşahidəçilərin respublikamıza gəlmələri, Exit-poll keçirməsinin gözlənilməsi, məntəqələrdə vebkameraların quraşdırılması komissiyaların məsuliyyətini daha da artırır. Səsvermənin şəffaf, tam demokratik, Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilməsi, qanun pozuntularına yol verilməməsi hər bir məntəqə seçki komissiyasının, komissiya üzvünün başlıca vəzifəsidir.

Hörmətli neftçalalılar, sizin vəzifəniz isə səsvermə günü — sentyabrın 26-da ərazinizdəki məntəqələrə gələrək Konstitusiyamıza ediləcək əlavə və dəyişikliklərə öz münasibətinizi bildirməkdir. Unutmayın ki, bu sizin vətəndaşlıq borcunuz, Konstitusiya təminatınızdır. Ona görə də 61 saylı Neftçala Dairə Seçki Komissiyası hər birinizi sentyabrın 26-da səsvermə məntəqələrinə səsləyir. Gəlin, səsinizi verin, ölkəmizin daha sürətli inkişafı, təhlükəsizliyinizin, hüquqlarınızın daha etibarlı qorunması üçün təminat yaradın.

Neftçi gününüz mübarək!

İndi bütün dünya neft uğrunda mübarizə aparır, dünyanın müqəddəratını məhz neft həll edir. Minbir çətinliklərlə dolu olan belə mühüm sahədə çalışmaq, yerin dərin qatlarından qiymətli "qara qızıl" çıxarmaq həmişə çətin olub, texnologiyaların inkişaf etdiyi indiki dövrdə də çətindir, həmin sahədə çalışanlardan bu gün də böyük hünər, cəsarət, mərdlik tələb olunur.

Böyük Vətən müharibəsində alman faşizmi üzərindəki möhtəşəm qələbədə Azərbaycan neftinin misilsiz rolu, Azərbaycan neftçilərinin misilsiz zəhməti olmuşdu, bu tarixi qələbə məhz Azərbaycanda istehsal olunan qiymətli yanacağın, Azərbaycan neftçilərinin fədakar zəhmətinin sayəsində qazanılmışdı. Buna baxmayaraq respublikamızın, Azərbaycan neftçilərinin tarixi qələbədəki rolu, xidməti lazımınca qiymətləndirilməmiş, Bakı Qəhrəman şəhərlər sırasına daxil edilməmişdi. Ona görə ki, onda biz öz sərvətimizin əsl sahibi deyildik, keçmiş SSRİ bu sərvəti özünün halal malı, halal sərvəti hesab edirdi.

Neftimizi də ilk dəfə öz sərvətimizə çevirən, bu qiymətli sərvətin gəlirlərini ilk dəfə xalqın mənafeyinə yönəldən məhz ulu öndər Heydər Əliyev oldu. 1994-cü il sentyabrın 20-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış, bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınmış neft kontraktları imzalandı. Bu kontraktlar Azərbaycanın neft və yeni iqtisadiyyat tarixinin şanlı səhifəsini açdı. Ölkəmiz ilk dəfə idi ki, 6 ölkəni təmsil edən dünyanın məşhur 10 xarici neft şirkəti ilə belə böyük miqyasda saziş imzalayırdı. Bu saziş Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu, xarici sərmayədarların Azərbaycana axınını sürətləndirdi.

Ölkəmizin neft sərvətinin artırılmasında rayonumuzun neftçiləri də həmişə öz sözlərini demişlər. Adının kökündə neft kəlməsi olan rayonumuzda çeşmələrlə yerin üst qatındakı çalalara çıxan bu qiymətli

sərvətdən ta qədim vaxtlardan müxtəlif məqsədlər üçün istifadə olunsa da, burada neftin sənaye üsulu ilə istismarına bir əsrə yaxın bundan əvvəldən, ötən əsrin 20-ci illərindən başlanıb, ötən müddətdə yerin dərin qatlarında 100 minlərlə ton "qara qızıl" çıxarılıb. Rayonun neftçiləri Böyük Vətən müharibəsi illərində xüsusilə fədakarlıqla çalışmış, ən çox nefti də məhz o illərdə çıxarmışlar.

Neftçala neftçiləri sonrakı illərdə də fədakarlıq nümunələri göstərmiş, ən çətin vaxtlarda belə ruhdan düşməmiş, nailiyyətlərini, göstəricilərini durmadan artırmışlar. Neft mütəxəssislərimiz təkcə rayonumuzdakı neft mədənlərində çalışmaqla kifayətlənməmiş, 50-60-cı illərdə kəşfiyyatına başlanan Şirvan və Kürsəngi neft yataqlarının mənimsənilməsində də mühüm rol oynamış, ayrı-ayrı vaxtlarda bir çox xarici ölkələrin neftçilərinə də köməyə getmişlər.

Ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra bir müddət ağır günlərini yaşayan Neftçala neftçiləri öz uğurlarını, xoşbəxtliklərini məhz ulu öndər Heydər Əliyevin işləyib hazırladığı yeni neft strategiyasında tapdılar. Məhz bundan sonra burada da işlər qaydasına düşməyə başladı. Hazırda rayonumuzda neft mədənlərinin istismarını Neftçala Operatinq Kompayn LTD şirkəti həyata keçirir. Əlamətdar cəhətdir ki, şirkət əldə etdiyi gəlirin bir hissəsini rayonda mədəni-quruculuq işlərinə sərf edir. Bu şirkət eyni zamanda Neftçala Rayon İcra Hakimiyyətinin təsisçisi olduğu "Gündoğar" qəzetinə də dəfələrlə köməklik göstərmişdir. İnanırıq ki, bundan sonra da belə olacaq, şirkət rayon mətbuatından köməyini yenə əsirgəməyəcəkdir. Çalışacağıq ki, biz də borclu qalmayaq, neftçilərimizin həyatını daha geniş şəkildə işıqlandıraq, onların uğurlarını, nailiyyətlərini biz də alqışlayaq.

Peşə bayramınızı ürəkdən təbrik edirik, əziz neftçilər! Çətin və şərəfli işinizdə Sizə daha böyük uğurlar, qələbələr arzulayırıq. Qoy heç bir çətinlik qarşınızı kəsməsin, heç bir manea Sizi ruhdan salmasın, yerin dərin qatlarından çətinliklə çıxardığınız "qara qızıl" üzünüzü həmişə ağ, başınızı həmişə uca etsin.

"Gündoğar"

Qurban bayramı münasibətilə şəhid ailələrinə, imkansız ailələrə sovqatlar verildi

Bütün dünya xalqları kimi müsəlman aləminin də özünə məxsus inancları, müqəddəs bayramları var. Bu bayramların içərisində Qurban bayramı xüsusilə fərqlənir. Bütün müsəlmanlar bu əziz bayramı həmişə böyük sevgi ilə qeyd edirlər. Allah yolunda qurbanlar kəsilir. İnsanlar Böyük Yaradana dualar edir, Ondan istəklərini, diləklərini diləyirlər.

Bu il respublikamızda bu əziz bayram sentyabrın 12-si və 13-də qeyd olundu. Həmin günlərdə ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da böyük sevinc yaşanırdı. Bayram günlərində rayonumuzda da çoxlu sayda qurbanlar kəsildi. Burada da insanlar Qadir Allahdan diləklərini dilədilər, dövlətimizin güclü, ölkəmizdəki əmin-amanlığın daimi olması üçün dualar etdilər.

Kəsilən heyvanların ətindən şəhid ailələrinə, imkansız ailələrə və digər şəxslərə pay verildi. Ümumi sevinc içində qeyd olunan, şükranlıqla yola salınan bu əziz bayram yaddaşlarda qaldı.

Allah kəsilən qurbanlarınızı qəbul etsin.

YENİ DƏRS İLİ BAŞLANDI

Üç aya yaxın davam edən yay tətilindən sonra ümumtəhsil məktəblərində həyat yenidən canlanmağa, qaynamağa başlamışdır. Ötən dərs ili rayonumuz üçün əlamətdar oldu. Şagirdlərimiz il boyu keçirilən bilik yarışlarında, respublika müsabiqələrində və digər tədbirlərdə fəal iştirak edərək bir-birindən layiqli uğurlara imza atdılar. Ali məktəblərə tələbə qəbulu xüsusilə yaddaqalan oldu. 192 nəfərin tələbə adına layiq görülməsi, 58 nəfərin 500-lə 600 arasında, 15 nəfərin isə 600-dən çox bal toplaması çəkilən zəhmətin bəhrəsi idi.

Bu il məktəblə vidalaşan onbirincilərin sayı isə 654 nəfər idi. Onlardan 222 nəfərinin tələbə adını qazanması əvvəlki illə müqayisədə daha yüksək nəticədir. Şübhəsiz ki, bu hər birimizi ürəkdən sevindirir. 16 nəfər məzunun 600-dən çox bal toplaması isə xüsusilə sevindiricidir. Bu böyük uğur ilk növbədə şəhər 1, 2, 4 saylı, Həsənabad, Bankə qəsəbə 2 saylı, Cəngən, Aşağı Surra, Qədimkənd və digər tam orta məktəblərin kollektivlərinin adları ilə bağlıdır.

Artıq ümumtəhsil məktəblərinin kollektivləri yeni dərs ilinə qədəm qoydular. Bu il 50 ümumtəhsil müəssisəsində 9 mindən çox şagird təhsil alacaqdır. Şagirdlərin təlim-tərbiyəsi ilə 1100 nəfərə yaxın müəllim məşğul olacaqdır. Bütün bunlar sentyabrın 6-da Heydər Əliyev Mərkəzində keçirilən müəllimlərin ənənəvi sentyabr konfransında geniş təhlil olundu, uğurlarla, nailiyyətlərlə yanaşı buraxılmış nöqsanlar, problemlər də diqqətdən yayınmadı, qarşıda duran vəzifələrə geniş aydınlıq gətirildi.

Müəllimlərin sentyabr konfransı

Ötən illərdə olduğu kimi, rayonumuzun müəllimləri, təhsil işçiləri özlərinin ənənəvi konfranslarına yüksək əhvali-ruhiyyə ilə gəlmişdilər. Ölkəmizdə təhsilin inkişafına, yenidən qurularaq müasirləşməsinə göstərilən qayğı və diqqət, bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər pedaqoji kollektivləri daha yaxşı işləməyə ruhlandırır. Bu, təhsil işçilərinin, müəllimlərin çöhrələrindəki sevinc hissindən də aydın olurdu.



Konfrans başlamamışdan əvvəl təhsil işçiləri ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçək dəstələri düzdülər, bu sahənin inkişafında əvəzsiz xidmətləri olan ulu öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Konfransın işində Neftçala Rayon İcra Hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, respublika Təhsil Nazirliyinin məsul işçisi hörmətli Aydın Əhmədov, 13 saylı Ərazi Maliyyə Hesablama Mərkəzinin rəisi hörmətli Fəraid Qəhrəmanov iştirak edirdilər.

Konfrans öz işinə Dövlət himni ilə başladı.

Konfrans açıq elan edildikdən sonra rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov ötən dərs ilinin yekunları və qarşıda duran vəzifələrlə bağlı məruzə etdi. Qeyd

olundu ki, ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı, rayon rəhbərliyinin təhsilin inkişafı ilə əlaqədar həyata keçirdiyi ardıcıl tədbirlər ötən ilki dərs ilində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində çox mühüm rol oynamışdır. Buna cavab olaraq ümumtəhsil müəssisələrinin pedaqoji kollektivləri, şagirdlər fənn olimpiadalarında, bilik yarışlarında, respublika müsabiqələrində, ali məktəblərə tələbə qəbulunda fəal iştirak edərək layiqli uğurlar qazanmış, doğma rayonumuza başucalığı gətirmişlər.

2015-2016-cı tədris ilinin yekunlarına geniş aydınlıq gətirərək əldə olunmuş nailiyyətlərdən ürək dolusu söhbət açan, çətinlik və problemləri diqqətə çatdıran məruzəçi yeni dərs ilində qarşıda duran vəzifələrə də geniş aydınlıq gətirdi. Qeyd olundu ki, təhsilin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş Dövlət Proqramlarının, təhsilin inkişafı üzrə Dövlət Strategiyasının yerinə yetirilməsi istiqamətində işlər hər vasitə ilə sürətləndirilməli, fəallıq və işgüzarlıq durmadan artırılmalıdır. Bütün pedaqoji kollektivlər əlaqədar təşkilatlarla sıx təmasda işləyərək nöqsan və çatışmazlıqların, çətinlik və problemlərin aradan qaldırılması üçün səylərini birləşdirməlidirlər. İş sahələri üzrə planlaşdırmanın nəticələr əsasında qurulması, məktəb şəbəkəsinin və şagird kontingentinin optimallaşdırılması, təlim nəticələrinə görə özünü doğrultmayan məktəblərin tipinin dəyişdirilməsi, icbari ümumi orta təhsilin yerinə yetirilməsi, məktəb rəhbərlərinin və müəllimlərin icra intizamının, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, müasir idarəetmə mexanizminin tətbiqi, təhsilin keyfiyyətinə nəzarəti təmin etmək məqsədilə təcrübədə sınaqdan çıxmış vasitələrdən səmərəli istifadə olunması istiqamətində düşünülmüş və ardıcıl tədbirlərin həyata keçirilməsi qarşıda duran başlıca vəzifələrdəndir. Rayon təhsil şöbəsi və pedaqoji kollektivlər bütün qüvvələri səfərbər etməklə qarşıda duran bu vəzifələrin yerinə yetirilməsi üçün kompleks tədbirlər həyata keçirəcəklər.

Məruzə ətrafında müzakirələr də canlı və maraqlı keçdi. Xıllı qəsəbə 1 saylı və Aşağı Surra kənd tam orta məktəblərinin direktor müavinləri Qabil Hüseynov, Elnur Abdiyev, Həsənabad qəsəbə tam orta məktəbinin qızıl medallı məzunu, 643 balla Prezident Yanında Dövlət İdarəçilik Akademiyasına daxil olan Güntəkin Mehnətli, övladı 613 balla Azərbaycan Tibb Universitetinə qəbul olunmuş valideyn Məlik Zahidov, Qədimkənd kənd tam orta məktəbinin direktoru Kamal Cəfərov, rayon uşaq-gənclər şahmat məktəbinin direktoru Araz Əhmədov və başqaları çıxış edərək ürək sözlərini bildirdilər, ayrı-ayrı məsələlərlə bağlı təkliflərini irəli sürdülər.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin, respublika Təhsil Nazirliyinin məsul işçisi hörmətli Aydın Əhmədovun çıxışları xüsusilə maraqla dinlənildi. Onlar görülən işləri qiymətləndirməklə yanaşı, qarşıda duran vəzifələrə də geniş aydınlıq gətirdilər. Yeni dərs ilinin başlanması münasibətilə təhsil işçilərini, rayonun müəllim və şagirdlərini ürəkdən təbrik etdilər, onlara yeni-yeni uğurlar, sevinc dolu günlər arzuladılar.

Belə sevincli gündə rayonun qabaqcıl müəllimlərinin əməyinin layiqincə qiymətləndirilməsi onlar üçün unudulmaz oldu. Müəllimlərə rayon icra hakimiyyətinin və rayon təhsil şöbəsinin Fəxri fərmanlarının təqdim olunması onların fərəhinə yeni fərəh qatdı.

Həmin gün 600-dən çox bal topladıqlarından konfransda iştirak edən məzunlar da böyük sevinc hissi yaşadılar. Onlar da diplomlarla, pul mükafatları ilə mükafatlandırıldılar. Yüksək bal toplayan məzunların yetişməsində, kamala yetməsində, dərin biliklərə yiyələnməsində layiqli zəhmətləri olan müəllimlər də unudulmadı. Təqdim olunan Fəxri fərmanlar onları da ürəkdən sevindirdi.

Sonda qəbul imtahanlarında 600-dən çox bal toplayaraq ali məktəblərə qəbul olunan tələbələr rayon rəhbəri ilə birlikdə xatirə şəkilləri çəkdirdilər.

Allahverdi MİKAYILOV

Bilik gününün böyük sevinci

Sentyabrın 15-i — Bilik Günü hamı üçün bayramdır. Peşəsindən, vəzifəsindən, mövqeyindən asılı olmayaraq həmin gün hamı sevinir, fərəhli dəqiqələrlə yaşayır. Bu sevinci, fərəhi şəhər 4 saylı tam orta məktəbində də gördük. Rayonun digər ümumtəhsil müəssisələrində olduğu kimi burada da qələbəlik idi. Uzun ayrılıqdan sonra yenidən doğma məktəblərinə qayıdan şagirdlər tətil dövründəki təəssüratlarını bir-birilə bölüşür, şirin söhbət edirdilər. Elə müəllimlər də az sevinmirdilər. Onlar da doğma məktəb üçün, sevimli şagirdləri üçün darıxmışdılar. İlk dəfə məktəbə qədəm qoyacaq birincilərin əlindən tutaraq buraya gələn valideynlər, nənələr, babalar və digər doğmalar da böyük intizarla, səbirsizliklə birinci zəngin çalınacağı dəqiqələri gözləyirdilər.

Yeni dərs ilinin başlanması münasibətilə təşkil olunan təntənəli mərasimə dəvət olunan qonaqlar da burada idilər. Hazırlıq işlərinə nəzarət edən rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov və digər rəsmilər yeri gələndə məsləhətlərini də verirdilər.

Təyin olunan vaxtda rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev də məktəbə gəldi. Rayonun rəhbər işçiləri də onunla birlikdə idi. Məktəblilər hörmətli qonaqlara gül dəstələri təqdim etdilər.

Yeni dərs ilinin başlanmasına həsr olunmuş təntənəli mərasim respublikamızın Dövlət himni ilə başlandı.

İlk dəfə məktəbə qədəm qoyan birincilərin sevinci xüsusilə böyük idi. Onlar Vətənə, doğma məktəbə həsr olunmuş şeirlər söylədilər, mahnılar oxudular, rəqs etdilər.

Məktəbin direktoru Şəfəq Balaşova çıxış edərək ötən dərs ilində görülən işlər, həyata keçirilən tədbirlər və əldə olunan nəticələr barədə geniş məlumat verdi. Aydın oldu ki, təhsil ocağının şagirdləri keçirilən bilik yarışlarında, müsabiqə və olimpiadalarda fəal iştirak ediblər. Məktəbi bitirən məzunlardan 22 nəfərinin ölkənin ali məktəblərinə qəbul olunması da bununla bağlıdır. Bu il isə burada 625 nəfər şagird təhsil alacaq, onların təlim-tərbiyəsi ilə 80 nəfər müəllim məşğul olacaqdır.

Sonra söz rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimova verildi. Ölkəmizdə təhsilin inkişafına göstərilən qayğı və diqqətdən ürəkdolusu söhbət açan Əjdər müəllim bu qayğı və diqqətə görə ilk növbədə Prezident İlham Əliyevə, bir-birindən maraqlı layihələrin təşəbbüsçüsü olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya səmimi minnətdarlığını bildirdi. Qeyd etdi ki, təhsilin uğurları üçün rayon rəhbərliyi də köməyini əsirgəmir. Son bir neçə ildə rayonumuzda 5 yeni məktəbin tikilərək istifadəyə verilməsi, Aşağı Surra kənd tam orta məktəbinin əsaslı təmir olunması, burada əlavə tədris korpusunun inşa edilməsi hər birimizi ürəkdən sevindirir və bunlar rayon təhsilinin inkişafı üçün layiqli hədiyyələrdir. Sözünün sonunda yeni dərs ilinin başlanması münasibətilə rayonun təhsil işçilərini, pedaqoji kollektivləri səmimi-qəlbdən təbrik edən Əjdər müəllim onlara qarşıdakı dərs ilində daha böyük uğurlar arzuladı.

Belə xoş, əlamətdar gündə hamının qəlbi sözlə, söhbətlə dolu idi. Hamı çıxış etmək, müəllimlərə öz ürək sözlərini bildirmək istəyirdi. Elə buna görə də rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqovanın çıxışı maraqla dinlənildi. Çıxışının sonunda Gültəkin xanım rayon rəhbəri adından və öz adından məktəbin pedaqoji kollektivini, şagirdləri ürəkdən təbrik edərək yeni dərs ilində onlara daha böyük nailiyyətlər arzuladı.

Məktəbin müəllimi Qönçə Quliyevanın və digərlərinin çıxışları da səmimi qarşılandı.

Ötən dərs ilindəki uğurlarına görə fərqlənən şagirdlərə təşəkkürnamələrin verilməsi onların sevincini ikiqat artırdı.

Hamının səbirsizliklə, intizarla gözlədiyi vaxt nəhayət ki, gəlib çatdı. İlk zəngin sədaları şagird və müəllimləri yenidən siniflərə səslədi. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, qonaqlar da içəri daxil oldular. Rayon rəhbəri məktəbdəki şəraitlə bir daha yaxından tanış oldu. Müəllimlərlə, ayrı-ayrı şəxslərlə görüşüb söhbət etdi, onlara özünün dəyərli məsləhətlərini verdi.

Bir-birindən xoş sözlərlə, səmimi təbriklərlə müşayiət olunan mərasim yaddaşlarda şirin xatirə kimi qaldı.

Murad ƏHMƏDOV

* * *

Həmin gün — sentyabrın 15-də rayonumuzda elə bir məktəb olmadı ki, orada belə təntənəli mərasim təşkil olunmasın. Məktəblərə gələn idarə və müəssisələrin rəhbərləri, hörmətli qonaqlar, ictimai təşkilatların nümayəndələri çıxış edərək yeni dərs ilinin başlanması münasibətilə müəllim və şagirdləri ürəkdən təbrik etdilər, onlara uğurlar arzuladılar. Şagirdlər də öz növbəsində söz verdilər ki, bundan sonra daha yaxşı oxuyacaqlar, hər yerdə doğma Neftçalanın adına layiq olacaqlar, qazandıqları qələbələri ilə onun şərəfini uca tutacaqlar.

Təbliğat kampaniyası davam edir

HƏR YERDƏ ADAMLAR DƏYİŞİKLİKLƏRƏ "HƏ" DEYƏCƏKLƏRİNİ BİLDİRİRDİLƏR

Elə məsələlər var ki, onları geniş şəkildə təşviqat, təbliğat aparmadan həyata keçirmək, reallaşdırmaq çətin olur. İnsanlar, geniş xalq kütləri həmin məsələnin mahiyyətini dərindən dərk etməsələr, anlamasalar ona münasibət

bildirməkdə çətinlik çəkirlər. Konstitusiyamıza olan əlavə və dəyişikliklər də belədir. Bu əlavə və dəyişikliklərin hər biri dövrün, zamanın tələbidir. Onları etmədən ölkəni daha da gücləndirmək, dövlətin təhlükəsizliyini, insanların hüquq və azadlıqlarının qorunmasını daha etibarlı şəkildə təmin etmək mümkün deyildir. Mərkəzi Seçki Komissiyasının müvafiq qərarı ilə təsdiqlənmiş təqvim planında digər məsələlərlə yanaşı referendumqabağı təşviqat kampaniyasının aparılmasının nəzərdə tutulması da bununla bağlıdır. Rayon icra hakimiyyəti başçısının 24 avqust 2016-cı il tarixli 87 nömrəli sərəncamı ilə toplantı və yığıncaqların keçirilməsi ilə bağlı açıq və qapalı yerlərin müəyyənləşdirilərək təsdiqlənməsi də təbliğat və təşviqat kampaniyasının normal keçirilməsinə xidmət edirdi.

Təşviqat kampaniyası Neftçala şəhərindən başlandı. Şəhər mədəniyyət evinə çoxlu sayda adam toplaşmışdı. Əvvəlki təşviqat kampaniyalarında olduğu kimi Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, rayonumuzun deputatı hörmətli Arif Rəhimzadə bu dəfə də YAP rayon təşkilatı təşviqat qrupunun üzvü kimi rayon sakinlərinin, neftçalalıların yanında idi. Salondakılar onu böyük hörmətlə, səmimiyyətlə qarşıladılar. Arif müəllim bu hörməti seçicilərinə olan diqqəti, onlara göstərdiyi uzunmüddətli xidməti, köməyi sayəsində qazanmışdı.

Təşviqat kampaniyası ilə bağlı tədbiri YAP rayon təşkilatının sədri Anar Cəfərov açaraq Konstitusiyamıza olunan əlavə və dəyişikliklərlə bağlı keçiriləcək referendum barədə geniş məlumat verdi, bununla bağlı qarşıda duran vəzifələrdən danışdı.

Sonra söz təşviqat qrupunun üzvü, rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidova verildi. Öz maraqlı çıxışları, sözü, söhbəti ilə həmişə fərqlənən, diqqəti çəkən Telman həkimin Konstitusiyamıza olunan əlavə və dəyişikliklərin mahiyyətinə gətirdiyi aydınlıq da dinləyiciləri razı saldı. Onlar bu əlavə və dəyişikliklərin nədən irəli gəldiyini, hansı məqsədi daşıdığını yetərincə anladılar.

Belə mötəbər tədbirdə kifayət qədər zəngin dövlətçilik təcrübəsi olan Arif müəllimin sözünə, söhbətinə xüsusilə ciddi ehtiyac duyulurdu. Ona görə salona toplaşanlar onu daha diqqətlə dinlədilər. Hörmətli Arif Rəhimzadə icra hakimiyyətlərinin səlahiyyətlərinin artırılmasına, təhlükəsizliyin, hüquq və azadlıqlarımızın daha etibarlı şəkildə qorunmasına xidmət edəcək, təminat yaradacaq əlavə və dəyişikliklərin mahiyyətini ayrı-ayrılıqda, maddə-maddə təhlil edərək onların hər birinə geniş aydınlıq gətirdi. Bununla yanaşı Arif müəllim fərdi şəkildə ona ünvanlanan müraciətlərin, sualların, məsələlərin həlli istiqamətində də fikirlərini bildirdi, salondakıları da, sonradan ona müraciət edən insanları da sentyabrın 26-da, referendum günü səsvermə məntəqələrinə gələrək Konstitusiyamıza olunacaq əlavə və dəyişikliklərə münasibətlərini bildirməyə çağırdı.

Təşviqat qrupunun rayondakı ikinci görüşü də ən böyük inzibati ərazilərdən birində — Aşağı Qaramanlı nümayəndəliyindəki mədəniyyət evində keçirildi. Tədbirdə Aşağı Qaramanlı kəndinin sakinlərilə yanaşı digər ətraf yaşayış məntəqələrinin sakinləri də iştirak edirdilər. Bu ərazidəki insanlar da Arif müəllimi yaxşı tanıyırdılar. Arif müəllim ayrı-ayrı insanların müəyyən problemlərini həll etməklə yanaşı, bu ərazinin əkin sahələrini su ilə təmin edən nasos-stansiyanın böyük vəsait hesabına tamamilə yenidən qurulmasına və əhalini narahat edən bir sıra digər çətinliklərin aradan qaldırılmasına da köməyini əsirgəməmişdi.

Bütün bunlardan sonra adamlar böyük inamla seçərək səs verdikləri deputatlarının "səsvermə məntəqələrinə gəlin, Konstitusiyamıza edilən əlavə və dəyişikliklərə münasibətinizi bildirin" çağırışına biganə qala bilməzdilər. YAP rayon təşkilatının sədri Anar Cəfərovun tədbiri açıq elan etdikdən sonra təşviqat qrupunun üzvü kimi ilk olaraq sözü sakinlər arasında böyük nüfuzu olan hörmətli Arif Rəhimzadəyə verməsi də təsadüfi deyildi. Arif müəllim buradakı geniş çıxışında da elə bir əlavə və dəyişiklik olmadı ki, hərtərəfli təhlil etməklə onlara geniş aydınlıq gətirməsin. Təşviqat qrupunun digər üzvü Telman Zahidovun həmyerlilərilə söhbəti də səmimi alındı. Salondakılar Telman həkimin əlavə və dəyişikliklərlə bağlı fikirlərini, izahatlarını da böyük maraqla dinlədilər.

Konstitusiyamıza edilən əlavə və dəyişikliklərlə bağlı rayonun digər ərazilərində keçirilən görüşlər də yaddaqalan oldu. Adamlar bu səmimi görüşlərdən çox şey öyrəndilər, bilmədiklərini başa düşdülər. Bunun əsas səbəblərindən biri də təşviqat işlərinə ən təcrübəli, rayonda yüksək nüfuza malik insanların cəlb olunması idi. YAP rayon təşkilatının sədri Anar Cəfərov, uzun illərdən bəri rayonumuzu Milli Məclisdə layiqincə təmsil edən hörmətli Arif Rəhimzadə, həm rayondakı nüfuzu, həm də natiqlik qabiliyyəti ilə diqqəti daim cəlb edən rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov və digər nüfuzlu, hörmətli şəxslər belə kampaniyalarda dəfələrlə iştirak etdiklərindən təbliğat-təşviqat işlərində zəngin təcrübə qazanmışdılar. Onlar adamları yaxşı tanıdıqları kimi adamlar da onları səmimiyyətlə qarşılayırdılar, axıradək dinləyirdilər, bilmədiklərini, başa düşmədiklərini öyrənməyə çalışırdılar. Bütün bunlar isə yəqin ki, təsirsiz qalmayacaqdır. Buna rayon sakinlərinin referenduma olan maraqları da açıq-aydın göstərirdi. Onlar məntəqələrə gələrək səsvermədə fəal iştirak edəcəklərinə söz verirdilər. Bu isə referendumun baş tutması üçün ən yaxşı təminatdır.

M.ƏHMƏDOV

* * *

Təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP rayon təşkilatı təşviqat qrupunun Heydər Əliyev Mərkəzində qadınlarla keçirdiyi tədbir də yaddaqalan oldu. Bu tədbiri də YAP rayon təşkilatının sədri Anar Cəfərov açdı. Təşviqat qrupunun üzvləri Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, rayonumuzun deputatı Arif Rəhimzadə, rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov, YAP rayon təşkilatı qadınlar şurasının sədri Gültəkin xanım Sadıqova və başqaları çıxış edərək Konstitusiyamıza edilən əlavə və dəyişikliklər barədə tədbirdə iştirak edən qadınlara ətraflı məlumat verdilər, onların suallarını cavablandırdılar.

Şəhər sakinləri isə şəhər mədəniyyət evində "Vətəndaş cəmiyyəti" təşviqat qrupunun həmkarlar ittifaqları və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə keçirdiyi tədbirin iştirakçıları oldular. Tədbirdə "Ana Vətən" partiyasının sədri, təşviqat qrupunun üzvü, millət vəkili Fəzail Ağamalı çıxış edərək referendumun keçirilməsinin əhəmiyyətindən danışdı, Konstitusiyamıza edilən əlavə və dəyişiklikləri təhlil edərək onların hər birinə geniş aydınlıq gətirdi.

Təşviqat qrupunun Neftçala rayonu üzrə nümayəndəsi, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı rayon komitəsinin sədri Elşad Əzizov, şəhər sakini Davud Ağalarov və başqaları da çıxış edərək fikirlərini bildirdilər, əlavə və dəyişikliklərin zamanın tələbindən irəli gəldiyini, dövlətimizin və dövlətçiliyimizin daha da möhkəmlənməsinə xidmət edəcəyini qeyd etdilər.

"AĞ QIZIL" TARLALARI HÜNƏR MEYDANIDIR

İndiyə kimi sahələrdən 220 tondan çox pambıq toplanmışdır

Yenə başdan-başa ağ örpəyə bürünmüş "ağ qızıl" tarlalarının böyük sevincini, fərəhini yaşayırıq. Bu böyük sevinc xəyallarımızı bir anlıq da olsa, ötən əsrin 70-80-ci illərinə aparır. Onda da rayon rəhbərliyindən tutmuş sıravi kolxozçuyadək hamı pambıq yığımının başlayacağı günü intizarla gözləyirdi. O gün

təsərrüfatlarda doğrudan da toybayrama çevrilirdi. Adamlar tarlarara ümumi sevinc içində çıxırdılar. Həmin gün yaddaşlarda şirin xatirə kimi qalırdı.

Aylarla çəkilən zəhmətdən sonra yaşıl donunu ağ libasla əvəz edən tarlalara baxanda adam bu gün də həmin xoş hissləri keçirir, pambıqçılara uğur arzulayır. Biz də bu xoş hisslərin, duyğuların təsirilə yola çıxdıq. Zəhmət adamları ilə iş üstündə görüşməyi, söhbət etməyi qərara aldıq. İstədik ki, dövlətimizin, dövlət başçımızın kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafı üçün gördüyü tədbirlərin yerlərdə necə qarşılandığının şahidi olaq.

Əvvəlcə yolumuzu yenicə fəaliyyətə başlayan rayon kənd təsərrüfatı idarəsindən saldıq. Burada da işgüzarlıq gördük. Səhər planlaşdırmasından sonra hərə öz profili üzrə hərəkət etməyə hazırlaşırdı. İdarənin rəisi Mustafa Əliyev gəlişimizin məqsədini bilməndə sevincini gizlədə bilmədi, qarşısındakı məlumatları nəzərdən keçirərək dedi:

— Pambıq qayğı, diqqət sevən bitkidir. Onun becərilməsi lazımi səviyyədə aparılmasa istədiyini ala bilməzsən. Şükürlər olsun ki, çəkilən zəhmət hədər getmədi. Hər yerdə bol məhsul yetişib. Becərmədə olduğu kimi kənd adamları yığımda da fəal iştirak edirlər. Rayon üzrə əkilən 1541 hektar sahədən nəzərdə tutulduğundan çox məhsul gözləyirik. İndiyə kimi tarlalardan 220 tondan çox pambıq toplamağa nail olmuşuq. Yığım sürətlə davam edir. İnanırıq ki, pambıqçılarımız yüksək nəticələr əldə edə biləcəklər.

İdarədən xoş təəssüratla ayrılaraq yolumuza davam etdik. Rayonun ayrı-ayrı ərazilərində olduq, fermerlərlə, kənd adamları ilə görüşüb söhbət etdik, onların qayğıları ilə maraqlandıq, arzularını, fikirlərini dinlədik.

Aşağı Surra kəndi rayonumuzun ən böyük yaşayış məntəqələrindən olmaqla yanaşı, həm də özünün birliyi, mütəşəkkilliyi ilə həmişə fərqlənib. İnsanları çox zəhmətkeş, əməksevərdirlər. Vaxtı ilə kənddəki "Azərbaycan" kolxozunu irəli aparan, dövrün bir çox təsərrüfatlarından fərqləndirən, qabaq-

cıllığını təmin edən də surralıların işgüzarlığı, mütəşəkkilliyi idi. Əvvəlcə kəndin inzibati ərazi dairəsi üzrə nümayəndəsi, "Gündoğar" qəzetinin yaxın dostu Elşad Tağıyevlə görüşdük, ona qələbə sevincləri arzuladıq. Elşad müəllimin məlumatından aydın oldu ki, ərazidə 109 hektar sahədə pambıq əkilmişdir. Becərmə işləri keyfiyyətlə, aqrotexniki qaydada həyata keçirildiyindən məhsul boldur. İndi kənd əməkçiləri, pambıqçılar yığımda da mütəşəkkillik göstərirlər. Əfsər Əhmədovun, Nazim Abdullayevin, Həsən Əliyevin əkin sahələrində biz bunun bir daha canlı şahidi olduq.

Əfsər Əhmədov dedi:

— İndiyə kimi tarlalardan 17 tondan çox pambıq toplamışıq. Məhsul isə boldur. Ona görə də yığımı sürətlə davam etdiririk. Vüsalə Babayeva, Gülnarə Babayeva, Mehparə Əsgərova, Flora Babayeva, Xanım Bəşirova, Xanımgül Babayeva, Zərqələm Babayeva və başqaları sürət ustalarımızdandır. Hər gün adama orta hesabla 70-80 kiloqram məhsul toplayırlar. Dövlət başçısının kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafına göstərdiyi diqqət bizi daha

yaxşı işləməyə ruhlandırır. Gələn il əkin sahələrimizi genişləndirməklə daha çox məhsul istehsal etmək uğrunda mübarizə aparacağıq.

Yolumuza davam edərək Nazim Abdullayevin əkin sahələrinə də baş çəkdik. Onlar da becərmə tədbirlərini vaxtlı-vaxtında yerinə yetirdiklərindən nəticə sevindirici idi. Başdan-başa ağ dona bürünməkdə olan kollar bol məhsuldan xəbər verirdi. Hamı yüksək əhvali-ruhiyyədə idi. Nazim Abdullayev bildirdi ki, dövlətin qayğısı və diqqəti onlara da qol-qanad verib. Ona görə əlverişli keçən hər gündən səmərəli istifadə edərək yığımı axıradək mütəşəkkilliklə davam etdirəcəklər.

Sahələrdəki bol məhsul, yüksək əhvali-ruhiyyə nümayəndə Elşad Tağıyevin qəlbini də fərəh hissilə doldurmuşdu. Öyrəndik ki, indiyə kimi ərazi üzrə 23 tondan artıq məhsul tədarük olunmuşdur. Yığım isə sürətlə davam edir.

Onlara uğur arzulayıb qonşuluqdakı Aşağı Qaramanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyə gəldik. Ərazi dairəsi üzrə nümayəndə Emin Bağırovun çöhrəsindəki sevincdən hiss olunurdu ki, bu ərazidə də işlər pis getmir. Kənd adamlarının, fermerlərin aylardan bəri çəkdikləri zəhmət burada da öz bəhrəsini verib. Bu ərazidə də bol pambıq yetişib. Nümayəndə Emin Bağırov dedi:

— Nəinki Azərbaycanda, o vaxtkı ittifaqda da tanınan, sayılıb seçilən, daim ən yüksək mükafatlara layiq görülən Nuruş Əliyev adına kolxozun mübariz ənənələrini yaşatmaq asan olmasa da, biz buna çalışırıq. Bu ərazinin adamlarının pambıqçılıqda çox zəngin təcrübələri var. Dövlət başçısının qayğı və diqqəti sayəsində indi onlar üçün yeni meydan açıldığından pambıqçılığa maraq bizdə də artıb. Ərazimizdə 179,6 hektar sahəyə çiyid səpilmişdi. Bəhrəsi də göz qabağındadır. Səmid Tağıyevin, Qara Abbasovun, Namiq Bağırovun, İlham Kərimovun sahələrində xüsusilə bol məhsul yetişib. Kənd adamları becərmədə olduğu kimi yığımda da fəal çalışırlar. Elə bilirəm axıra-

dək də belə olacaq. Fermerlər böyük zəhmətlə, xeyli vəsait hesabına hasilə gətirdikləri qiymətli məhsulu son qramınadək toplamaq əzmindədirlər.

Yığımın belə sürətlə davam etdiyi bu qaynar günlərdə rayonun ayrı-ayrı inzibati ərazilərində fəaliyyət göstərən müxbir postlarımızdan, əməkdaşlarımızdan, fəallarımızdan da şad xəbərlər aldıq. Öyrəndik ki, Xol zonasında da qızğın iş gedir. Cəngəndə, Yuxarı Qaramanlıda, Boyadda və digər ərazilərdə də bütün qüvvələr pambığın vaxtında, itkisiz toplanmasına səfərbər olunub. Hamı çalışır ki, istehsal etdiyi məhsulu ilə rayonumuzun göstəricisinə öz layiqli töhfəsini versin, doğma Neftçalamızın şərəf kitabına yeni-yeni parlaq səhifələr yazsın.

Habil ƏSƏDOV

Neftçala Magistral Kanalında

İŞLƏR GÜNDƏN-GÜNƏ SÜRƏTLƏNİR

Kənd təsərrüfatı iqtisadiyyatın ən mühüm sahəsi olmaqla yanaşı, eyni zamanda ən qədim sahəsidir. Dədə-babalarımız öz yaşayışlarını, gündəlik dolanışıqlarını məhz bu sahədə çalışmaqla təmin ediblər. Əvvəllər ən primitiv üsullardan, alətlərdən istifadə olunsa da, zaman keçdikcə, elm inkişaf etdikcə əl əməyini tədricən mexaniki üsullar, müxtəlif texnika vasitələri əvəz edib.

Əkin sahələrinin suvarılmasını təmin edən meliorasiyanın meydana gəlməsi, inkişaf edərək bu günkü səviyyəsinə çatması da zamanın, dövrün tələbidir. Meliorasiyanın geniş şəbəkəsi yaradılmadan, meliorativ tədbirlər həyata keçirilmədən böyük əkin sahələrini suvarmaq, torpağın suya olan tələbatını ödəmək mümkün deyildir. Əkin suyunu tarlalara çatdıran isə suvarma kanallarıdır. Ona görə də belə kanalların tikintisi, təmiri, yenidən qurulması daim diqqət mərkəzindədir.

Sözünə davam edən rayon suvarma sistemləri idarəsinin rəisi Elçin Əsədov dedi:

— Rayonun Xol zonasında əkin sahələrinin genişləndirilməsi ilə əlaqədar buraya yeni kanalın çəkilməsi də bu zərurətdən yarandı. Tikintisinə 2006-cı ildən başlanmış Neftçala Magistral Kanalının ümumi uzunluğu 25 kilometrdir. Saniyədə 15 kubmetr su aparmaq gücündə olan bu kanal istifadəyə verildikdən sonra ümumilikdə 17 min hektardan artıq sahəni bol əkin suyu ilə təmin etmək imkanı yaranacaqdır. Bu da öz növbəsində bol məhsul deməkdir. Bol məhsul isə yaxşı yaşayışdır, dolanışıqdır. 2008-2015-ci illəri əhatə edən "Əhalinin ərzaq məhsulları ilə tam təminatına dair Dövlət Proqramı"na daxil edilmiş dövlət əhəmiyyətli bu obyektin inşasının 2014-2018-ci illər ərzində tikilib başa çatdırılmasının çox mühüm vəzifə kimi qarşıya qoyulması da məhz bununla əlaqədardır.

Ötən illərdə müəyyən səbəblər üzündən obyektdə işlər ləngisə də, bu ilin əvvəlindən yeni start götürmüşdür. Tikintinin ümumi smeta dəyəri 75 milyon manatdır. İlin əvvəlinə kimi burada cəmi 15 milyon manatlıq tikinti-quraşdırma işləri həyata keçirilmişdisə, cari il ərzində də burada eyni həcmdə iş görüləcəkdir. İlin sonuna kimi kanalın 12 kilometrinin tikintisinin başa çatdırılması nəzərdə tutulur. Tikintini həyata keçirən "Muğansutikinti" ASC-nin 4 səyyar mexanikləşdirilmiş dəstəsinin obyektin inşasına cəlb olunması da bununla əlaqədardır. Həmin dəstələrin inşaatçıları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylə çalışırlar. Burada çoxlu canlı qüvvə ilə yanaşı, həm də çoxlu müasir texnika işləyir. Birgə səyin nəticəsidir ki, artıq kanalın 7 kilometrdən çoxu çəkilmişdir və bu iş sürətlə davam etməkdədir.

Biz orada olanda bunun bir daha canlı şahidi olduq. Obyektin tikintisində həqiqətən böyük canlanma vardı. Hər kəs öz vəzifəsinə məsuliyyətlə yanaşırdı. Çalışırdı ki, ona aid olan işi vaxtında yerinə yetirməklə digərinə də kömək etsin, ümumi ahəngdarlığın pozulmasına yol verilməsin. Obyektin tikintisinin yaxın vaxtlarda başa çatdırılmasının ciddi tələb kimi qarşıya qoyulmasından sonra inşaatçıların qüvvələrini yenidən səfərbər etmələri də bununla bağlıdır.

Bu gün Xol zonasında hamı sevinir. Özü də ürəkdən sevinir. Niyə də sevinməsinlər. Axı yeni kanal bu əraziyə bolluq, bərəkət gətirəcək. Buradakı su qıtlığına birdəfəlik son qoyacaq. Ona görə hamı bu işdə xidmətləri, köməkləri olanlardan məhəbbətlə söhbət açır, daim kəndlinin yanında olan, onun yaxşı yaşayışı üçün əlindən gələni əsirgəməyən öz sevimli Prezidentinə səmimi minnətdarlığını bildirir. Bu vacib işin reallaşması üçün böyük əmək sərf edən rayonumuzun deputatına — Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadəyə, yeni layihələrlə sakinlərə sevinc bəxş edən rayon rəhbərliyinə ürəkdən sağ ol deyir.

Fərhad AĞAYEV

Multikultural dəyərlər təbliğ olunur

Din insanarda yüksək əxlaqi keyfiyyətlərin, mənəvi dəyərlərin tərbiyə olunmasında çox mühüm rol oynayır. Amma çox təəssüf ki, son vaxtlar dindən öz çirkin məqsədləri üçün istifadə edənlər də tapılır. İnsanları üzüyə qoyan, islam adı altında təxribatlar törədən, gənclərin şüurlarını zəhərləyən radikal islamçılar bu cəhətdən xüsusilə təhlükəlidirlər. Ona görə indi hər yerdə olduğu kimi ölkəmizdə də islam radikalizminə qarşı çox ciddi mübarizə aparılır, multikultural dəyərlər geniş şəkildə təbliğ olunur.

"Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin (TUMİB) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyilə bu günlərdə rayonumuzda keçirdiyi "Dövlət-din münasibətlərinin Azərbaycan modeli: gənclərin qarşısında duran vəzifələr" movzusundakı tədbir də məhz bu məsələyə həsr olunmuşdu.

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyəti başçısı aparatının məsul işçisi Elnur Bağırov açaraq bununla əlaqədar rayonumuzda görülən işlərdən və qarşıda duran vəzifələrdən danışdı.

Sonra söz "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin sədri Çingiz Bayramova verildi. Öz çıxışında layihənin məqsədi barədə məlumat verən Çingiz Bayramov bildirdi ki, bu gün Azərbaycanda multikulturalizmin və tolerantlığın təbliğinin genişləndirilməsi gənclərin yad və radikal sektaların təsirlərindən qorunmasında çox mühüm rol oynayır və bununla əlaqədar lazımi tədbirlərin təşkil olunması qarşıda duran ən mühüm vəzifələrdəndir. Sözünə davam edən birlik sədri vurğuladı ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş multikulturalizm siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi bu işi daha da geniş şəkildə həyata keçirməyə imkan verir.

Daha sonra TUMİB idarə heyətinin üzvü Seymur Verdizadə, birliyin mətbuat xidmətinin rəhbəri Səbinə Novruzzadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Şirvan bölgəsinin aparıcı məsləhətçisi Yusif Yusifli və digərləri də söz alaraq mövzu ilə əlaqədar öz fikirlərini bildirdilər, təkliflərini irəli sürdülər.

F.ƏHMƏDOV

Neftçala Rayonu Icra Hakimiyyəti başçısının 24 avqust 2016-cı il tarixli 87 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi ilə bağlı mitinq, toplantı və yığıncaqların keçirilməsi üçün müəyyən edilmiş açıq və qapalı yerlər barədə siyahı

AÇIQ YERLƏR			QAPALI YERLƏR		
S/№	Ünvanı	Tutumu (nəfərlə)	S/№	Ünvanı	Tutumu (nəfərlə)
1	N.Nərimanov adına şəhər stadionu	5000	1	Neftçala şəhər mədəniyyət evi	300
2	Həsənabad qəsəbə mədəniyyət evinin qarşısındakı meydan	1500	2	Həsənabad qəsəbə mədəniyyət evi	150
3	"Melioservis" ASC-nin qarşısındakı ərazi	1000	3	Xıllı qəsəbə klubu	100
4	Boyat kənd mədəniyyət evinin qarşısındakı ərazi	700	4	Boyat kənd mədəniyyət evi	300
5	Aşağı Qaramanlı kənd mədəniyyət evinin qarşısındakı ərazi	1500	5	Aşağı Qaramanlı kənd mədəniyyət evi	300
6	Qədimkənd bələdiyyəsinin binası qarşısındakı ərazi	700	6	Qədimkənd bələdiyyəsinin binası	50
7	Aşağı Surra kənd mədəniyyət evinin qarşısındakı ərazi	800	7	Aşağı Surra kənd mədəniyyət evi	300
8	Yenikənd kənd mədəniyyət evinin qarşısındakı ərazi	950	8	Yenikənd kənd mədəniyyət evi	150
9	Tatarməhlə kənd mədəniyyət evinin qarşısındakı ərazi	800	9	Tatarməhlə kənd mədəniyyət evi	150
10	Yuxarı Qaramanlı kənd klubunun qarşısındakı ərazi	1000	10	Yuxarı Qaramanlı kənd klubu	100
11	Qaraqaşlı kənd klubunun qarşısındakı ərazi	1000	11	Qaraqaşlı kənd klubu	70
12	Yeniqışlaq kənd klubunun qarşısındakı ərazi	700	12	Yeniqışlaq kənd klubu	100
13	Xəzər kənd klubunun qarşısındakı ərazi	650	13	Xəzər kənd klubu	70
14	Xolqarabucaq kənd mədəniyyət evinin qarşısındakı ərazi	900	14	Xolqarabucaq kənd mədəniyyət evi	200
15	Xolqaraqaşlı kənd mədəniyyət evinin qarşısındakı ərazi	900	15	Xolqaraqaşlı kənd mədəniyyət evi	200
16	Qırmızıkənd kənd mədəniyyət evinin qarşısındakı ərazi	1000	16	Qırmızıkənd kənd mədəniyyət evi	200
17	Qaçaqkənd kənd mədəniyyət evinin qarşısındakı ərazi	1000	17	Qaçaqkənd kənd mədəniyyət evi	200

Vergi inzibatçılığının həyata keçirilməsində yeni mərhələ

Cari ilin avqustun 4-də Azərbaycan Respublikası Prezidenti "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Bu Sərəncam vergi sisteminin inkişafında, xüsusilə də vergi inzibatçılığının həyata keçirilməsində yeni bir mərhələ açır.

Sərəncamda vergi inzibatçılığı sahəsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu tədbirlərə vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir.

İslahatların mühüm bir hissəsi biznes mühitinin daha da yaxşılaşdırılması, vergi qanunvericiliyinin sahibkarlığın aparılması üçün daha əlverişli şərtlərin yaradılması və sahibkarların hüquqlarının genişləndirilməsi ilə bağlı müddəalarını əhatə edir.

Qarşıdakı dövrdə ölkə başçısının qeyd olunan tapşırığına uyğun olaraq istehsal fəaliyyəti ilə məşğul olan kiçik və orta sahibkarlar üçün mənfəət (gəlir) və əlavə dəyər vergisinin dərəcələrinin aşağı salınması ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, bu sahədə vergi inzibatçılığının sadələşdirilməsi nəzərdə tutulur.

Ölkədə aparılan sosial siyasətə uyğun olaraq, bir sıra istehlak mallarının qiymətlərinin ƏDV-nin differensiallaşdırılması yolu ilə tənzimlənməsi nəzərdə tutulur. Beynəlxalq təcrübədə belə mallara uşaq qidaları, məktəbli ləvazimatları, dərman vasitələri, əlillər üçün tibbi məhsullar və avadanlıqlar, kitablar və bir sıra xidmət növləri daxildir. Bununla bağlı Vergi Məcəlləsinə müvafiq dəyişikliklər layihəsi hazırlanacaq.

Uzun müddət müzakirə mövzusu olan kənd təsərrüfatı məhsullarının ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən bu məhsulların tam dəyərinin ümumi qaydada ƏDV-yə cəlb edilməsi ilə bağlı məsələ də artıq öz həllini tapacaq. Belə ki, ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlı müddəalar müvafiq qanunverici dəyişikliklərdə nəzərə alınacaq. Bu addım kiçik və orta sahibkarlığı stimullaşdırmaqla yanaşı, pərakəndə ticarətdə rəqabət mühitini təmin edəcək. Sərəncamın icrası ilə nümunəvi və intizamsız vergi ödəyiciləri müəyyən ediləcək, onların adları ictimaiyyətə açıqlanacaq. Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək.

Vergi ödəyicilərinə xidmətlərin spektri genişləndiriləcək və bir sıra yeni elektron xidmətlərin tətbiqi həyata keçiriləcək.

Sərəncamda müəyyən edilmiş islahatların digər bir hissəsi vergitutma bazasının genişləndirilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılması ilə bağlıdır.

Vergi orqanları tərəfindən aparılan araşdırmalar göstərir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrində vergidən yayınma hallarının miqyası kifayət qədər böyükdür. Bu özünü vergi öhdəliyi yaranan vergi ödəyicilərinin vergi orqanlarında qeydiyyatdan keçməməsində, uçot-məlumat bazasının düzgün aparılmaması və yaranmış vergi öhdəliklərinin düzgün göstərilməməsində, qiymətəmələgəlməsi prosesində vergi minimallaşdırılması metodlarının tətbiqində, vergi yükü aşağı olan ofşor zonalarda qeydiyyatdan keçməklə vergilərin yayındırılmasında, büdcəyə vergilərin tam və vaxtında ödənilməməsində və s. formalarda göstərir.

Vergi nəzarətinin artırılacağı sahələrdən biri xərclərin süni şəkildə artırılması (transfert qiymətləndirmə) hallarının aradan qaldırılması məqsədilə qanunvericilik bazasının yaradılması ilə bağlı olacaq.

Azərbaycanın mövcud vergi qanunvericiliyinin müvafiq müddəaları ölkə hüdudlarından kənarda təsis edilmiş şirkətlərin gəlir və xərclərinin düzgün müəyyən edilməsinə imkan vermir. Belə halların qarşısının alınması məqsədilə ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı (ofşor) hesab edilən dövlətlərdə və ya ərazilərdə, təsis edilmiş şəxslər tərəfindən həyata keçirilən əməliyyatlar üzrə əldə edilən gəlirlərin transfer qiymətləri tətbiq edilməklə vergiyə cəlb edilməsi üçün qanunvericiliyə dəyişiklik edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Azərbaycan Respublikası rezidentlərinin güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə (ofşor zonalarda) yaradılmış müəssisələrlə əməliyyatlarına səmərəli nəzarət mexanizmlərinin qurulması nəzərdə tutulur. Yeri gəlmişkən, ölkənin hüdudlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması sahəsində işlər intensivləşdiriləcək.

Bəzi vergi ödəyiciləri vergi qanunvericiliyi ilə verilmiş hüquqlardan sui-istifadə etməklə müxtəlif sxemlər vasitəsilə vergidən yayınırlar. Beynəlxalq təcrübə nəzərə alınmaqla belə vergi ödəyicilərinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə vergi qanunvericiliyində hüquqlardan sui-istifadə əleyhinə müddəaların daxil edilməsi nəzərdə tutulur. Ölkəmizdə mal, iş və xidmətlər üzrə dövriyyələrin rəsmiləşdirilməsi sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, bu sahədə qaimə-fakturaların kağız formasında tətbiqi qaimə-fakturaların uçotunda pərakəndəliyə səbəb olmaqla, uçotun lazımi səviyyədə təşkil olunmamasına və nəticə etibarı ilə vergidən yayınma hallarına şərait yaradır. Bu baxımdan qarşıdakı dövrdə elektron qaimə-faktura sisteminin tətbiqi dairəsi genişləndiriləcək.

Nəzərdə tutulan məsələlərdən biri, sabit vergi sisteminin tətbiqidir. Sabit vergi fiziki şəxslərin əldə etdiyi gəlirlərinin həcmindən asılı olmayaraq aylıq sabit məbləğdə müəyyən edilən vergidir. Vergi öhdəliklərinin bu qaydada yerinə yetirilməsi fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə vergi inzibatçılığının yüngülləşdirilməsi, vergi ödəmələrinin bəyannamə təqdim edilmədən sadələşdirilmiş qaydada yerinə yetirilməsi məqsədini daşıyır. Bu məqsədlə Vergi Məcəlləsində təklif edilən dəyişiklikdə bu kateqoriyaya aid olan fiziki şəxslərin siyahısının və aylıq sabit vergi məbləğlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi ilə bağlı mexanizmlər hazırlanacaq. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirilən ticarət sövdələşmələrinin (e-ticarət) sayı durmadan artmaqdadır və gələcəkdə də bu tendensiyanın artımı şübhəsizdir. Elektron ticarətdə "elektron pulların" tətbiqi bu sahəyə vergi nəzarətinin həyata keçirilməsini çətinləşdirir. Vergitutma bazasının genişləndirilməsi, habelə rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizminin yaradılması üçün Vergilər Nazirliyinin mütəxəssisləri ciddi işlər həyata keçirirlər.

Bunlarla yanaşı, "Könüllü vergi açıqlaması" ("Voluntary tax disdosure") sisteminin tətbiqi nəzərdə tutulur. Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən vergi yoxlaması zamanı aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması, azaldılması və s. kameral vergi yoxlaması üçün qanunla müəyyən edilmiş müddət bitdikdən sonra vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bu isə vergi ödəyicisinə dəqiqləşmiş bəyannamə verilməsi hüququnu verir ki, həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcək.

Daha bir yenilik vergidən yayınma haliarının qarşısını almaq məqsədilə ictimai məlumatlandırma ("Whistleblow") mexanizminin hazırlanmasıdır. Vergi Məcəlləsinin 73-cü maddəsinə əsasən görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən, yaxud hər hansı digər ödəmələr aparan şəxs, qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına məlumat verməlidir. Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən həmin maddə əhəmiyyətli dərəcədə tətbiq edilməyib. Sərəncamın icrası məqsədilə bu maddədə müəyyən edilmiş müddəalar daha da genişləndirilib, beynəlxalq təcrübə nəzərə alınmaqla vergidən yayınan vergi ödəyiciləri üzərində ictimai nəzarət mexanizminin yaradılması və vergidən yayınma faktları barədə vergi orqanına məlumat verən şəxslərin mükafatlandırılması nəzərdə tutulur.

Qeyd edək ki, avqustun 5-də Vergilər Nazirliyində ölkə Prezidentinin Sərəncamı ilə əlaqədar kollegiya iclası da keçirilib və Sərəncamla müəyyən edilmiş tapşırıqların icrası ilə bağlı Tədbirlər Planı qəbul edilib. Tədbirlər Planında Sərəncamda müəyyən edilmiş bütün məsələlər üzrə görüləcək işlər, bu işlərə məsul struktur vahidləri və icra müddətləri müəyyən edilib. İlin sonuna kimi Planın icrası təmin ediləcək.

Ədalət FƏRƏCOV,
5 saylı Ərazi Vergilər İdarəsinin rəisi

GÜNDOĞAR

18 sentyabr 2016-cı il - №26-27 (6613)

SON SƏHİFƏ

Təbrik: ÖMRÜN 40 İLİ

Hörmətli Anar müəllim! Bu ilin sentyabrında Sizin 40 yaşınız tamam olur. Ömrün bu yaşını gənclikdən növbəti mərhələyə keçid adlandırsaq, yəqin ki, yanılmarıq. İnsanın bacarığı, qabiliyyəti, mədəniyyəti və digər müsbət keyfiyyətləri özünü elə gəncliyində göstərir, gələcəyin daha böyük uğurlarının bünövrəsi məhz bu dövrdə qoyulur. Siz də gənclik enerjinizi boş yerə sərf etməmisiniz. Yaxşı oxumusunuz, ali təhsil almısınız, görüb götürmüsünüz, özünüzdə lazım olan müsbət keyfiyyətləri tərbiyə edə bilmisiniz. Sizi daim irəli aparan, bir çox yaşıdlarınızdan fərqləndirən də elə bu keyfiyyətləriniz olub.

Siz rayonun nüfuzlu, sayılıb-seçilən təşkilatlarından birinə — gənclər və idman idarəsinə rəhbərlik edəndə cəmi 23 yaşınız vardı. Bu yaşda minlərlə həmyaşıdlarınızın, idmansevərin ağsaqqalı olmaq heç də asan deyildi. Gəncləri ruhən sevmədən, idmana bağlanmadan, yeniliklərlə yaşamadan bu çətin vəzifənin öhdəsindən layiqincə gəlmək, həm rayon rəhbərliyinin, həm də gənclərin etimadını qazanmaq mümkün deyildi. Göstərilən etimadı doğrultduğunuza görə bunları həyatınızın ilk uğurları hesab etmək olar.

Vətəni qorumaq, ordu sıralarında qulluq etmək hər bir gəncin ən şərəfli, müqəddəs vəzifəsidir. Siz də əsgəri xidmətə bu amalla yollandınız. Vətən qarşısındakı övladlıq borcunuzu şərəflə yerinə yetirdiniz. Özü də sıravi əsgər kimi yox, zabit kimi. Əsgərlərinizi sevməklə yanaşı, zabit şərəfinizi də daim uca tutdunuz. Heç vaxt haqqı nahaqqa vermədiniz, tabeliyinizdə olan əsgərlərdən necə ciddi intizam tələb etdinizsə, özünüzə qarşı da bir o qədər tələbkar oldunuz, komandir heyətinin tapşırıqlarına yüksək məsuliyyətlə yanaşdınız.

Sonrakı taleyiniz, fəaliyyətiniz rayon icra hakimiyyəti ilə bağlıdır. Neçə illər burada ictimai-siyasi şöbəyə rəhbərlik etmisiniz. Rayonumuzda ideoloji işin düzgün təşkilində Sizin də rolunuz, zəhmətiniz az olmayıb. Eyni zamanda Siz Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri kimi də üzərinizə düşən məsul vəzifənin öhdəsindən layiqincə gəlmisiniz və bu gün də partiya üzvlərinin səfərbər olunmasında, düzgün istiqamətləndirilməsində səylərinizi əsirgəmirsiniz. Keçirilən Prezident, Milli Məclis, bələdiyyə seçkilərində, referendumlarda rayon təşkilatının fəal iştirak etməsində, uğur qazanmasında əməyiniz, zəhmətiniz az deyil.

Respublika mətbuatının ayrılmaz tərkib hissəsi olan "Gündoğar"ın dostlarının sayı çox olsa da, əsas istinadımız, güvəncimiz rayon rəhbəridir. Rayon rəhbərinin dəstəyi, yaxından köməyi olmadan biz qarşıya çıxan çətinlik və problemləri aradan qaldıra bilmərik. İndiki zamanda qəzetə abunənin təşkili xüsusilə ağrılı yerimizdir. Amma göstərilən qayğı və diqqət bizə yeni ruh verir. "Gündoğar"ın abunəsinin təşkilinin Sizə həvalə olunmasından sonra aramızdakı ünsiyyət, mehribanlıq bir az da artıb, möhkəmlənib. Biz Sizi də qəzetimizin, redaksiyamızın yaxın dostlarından hesab edirik. Sevinirik ki, Siz də köməyinizi rayon mətbuatından əsirgəmirsiniz.

Çəkilən zəhmətin bəhrəsi həmişə şirin olur. Dövlətimizin başçısı cənab İlham Əliyevin sərəncamı ilə "Dövlət quluğunda fərqlənməyə görə" medalı ilə təltif olunanda, rayon icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyasının Fəxri fərmanlarına və digər təşkilatların mükafatlarına layiq görüləndə bu şirinliyi Siz də yaxından duymusunuz, sevincli, fərəhli dəqiqələrlə yaşamısınız. Buna Sizin haqqınız var. Ona görə ki, cəmiyyət qarşısında özünüzə məxsus xidmətləriniz az deyil, rayon ictimaiyyətinin hörmətini qazanmısınız.

Övladın necə şirin nemət olduğunu valideyn olanlar yaxşı bilirlər. Bu, uca Yaradanın insanlara bəxş etdiyi ən böyük töhfədir. Neçə illərin narahatlığından, həyəcanından sonra belə şirin nemətin Sizə də qismət olması bizi də ürəkdən sevindirdi. Özü də bir yox, bir cüt övlada sahib olmağınız. Deməli, qismət olsa, ömür-gün yoldaşınız Aynur xanımla həm oğul toyu görəcək, həm də qızınızı el adətincə gəlin köçürəcəksiniz. Arzu edirik o xoş günləri görmək, sevincini, fərəhini yaşamaq Sizə də qismət olsun.

Sentyabrın 16-da 40 yaşınız tamam oldu. Bu münasibətlə Sizi bir daha ürəkdən təbrik edirik. Xoş arzularımızı, istəklərimizi bildiririk. İnanırıq ki, daha uğurlu günləriniz, aylarınız, illəriniz hələ qabaqdadır. Səmimiyyətiniz, zəhmətsevərliyiniz, qabiliyyətiniz Sizi daim irəli aparacaq, yeni-yeni nailiyyətlərə qovuşduracaq.

"Gündoğar" qəzetinin kollektivi

ŞAHMATÇILARIMIZ VƏ PARALİMPİYAÇILARIMIZ DA UĞURLAR QAZANDILAR

Bir-birindən möhtəşəm beynəlxalq tədbirlərin, idman yarışlarının mərkəzinə çevrilən Azərbaycan bu günlərdə daha bir mötəbər idman tədbirinə — sayca 42-ci Ümumdünya Şahmat Olimpiadasına da ev sahibliyi etdi. Sentyabrın 14-də başa çatan bu nüfuzlu yarışda rekord sayda — 176 ölkədən 181 kişi və 142 qadın komandası mübarizə aparırdı. Olimpiadanın Bakı şəhərində keçirilməsi haqqında qərar düz dörd il bundan qabaq, 2012-ci ildə Beynəlxalq Şahmat Federasiyasının (FİDE) Türkiyənin İstanbul şəhərində keçirilən 83-cü

konqresində qəbul olunmuşdu. O vaxtdan başlayaraq ölkəmizdə bu nüfuzlu tədbirin layiqincə keçirilməsi üçün geniş hazırlıq işlərinə başlanılmışdı. Prezident İlham Əliyevin 2013-cü il 14 fevral tarixli sərəncamına əsasən yaradılan Təşkilat Komitəsindən sonra bu işlər xüsusilə genişlənmişdi.

Milli Gimnastika Arenasında keçirilən Ümumdünya Şahmat Olimpiadasının təntənəli açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərarətli çıxışı bu dəfə də alqışlara səbəb olmuşdu, şahmatçılarımıza, idmançılarımıza böyük ruh vermişdi. Bu mötəbər yarışda ölkəmizi 3 kişi və 3 qadın komandası təmsil edirdi. Kişi şahmatçılardan ibarət əsas milli komandada Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Rauf Məmmədov, Eltac Səfərli, Arkadi Naydic, İkinci komandamızda Vasif Durarbəyli, Namiq Quliyev, Qədir Hüseynov, Nicat Abasov və Ülvi Bacarani, üçüncü komandamızda isə Nail Bəşirli, Məhəmməd Muradlı, Vüqar Əsədli, Pərviz Qasımov və Abdulla Qədimbəyli mübarizə aparırdılar. Xalqımız Zeynəb Məmmədyarova, Günay Məmmədzadə, Aydan Höccətova, Gülnar Məmmədova, Nərmin Kazımova və digər təcrübəli, bir sıra çempionatlarda yüksək nəticələrə nail olmuş qadın şahmatçılarımızdan da qələbələr gözləyirdi.

Sentyabrın 2-də şahmat olimpiadasının oyun zalında Azərbaycan yığmasının üzvü Şəhriyar Məmmədyarovun mübarizə apardığı şahmat masası üzərində ilk gedişi Prezident İlham Əliyevin etməsi sayalı oldu. Olimpiadanın ilk turunda ölkəmizin bütün komandalarının qələbə qazanması hamını ürəkdən sevindirməklə yanaşı, onların daha böyük zəfərlərə imza atacaqlarına da inam yaratdı. Sentyabrın 3-də komandalarımızın çıxışlarını uğurla davam etdirmələri bunu bir daha təsdiqlədi.

176 ölkədən 181 kişi və 142 qadın komandasının iştirak etdiyi yarışda aktivində 20 xal olan ABŞ millisi birinci, eyni xala malik Ukrayna ikinci, Rusiya millisi isə 17 xalla üçüncü yerə layiq görülüb. Hesabında 15 xal olan əsas komandamız isə yarışı 12-ci sırada tamamlayıb. İkinci komandamız 14 xalla 26-cı, üçüncü komandamız isə 13 xalla 49-cu pillədə qərarlaşıb.

Braziliyanın paytaxtı Rio de Janeyrodan gələn şad xəbərlər xalqımızı xüsusilə sevindirdi. XXXI Yay Olimpiya Oyunlarındakı parlaq qələbələrdən sonra bu dəfə mübarizəyə paralimpiyaçılarımız başlamışdılar. İdmansevərlərimiz XV Yay Paralimpiya Oyunlarını da həyəcanla izləyirdilər. Bu mötəbər yarışlarda ilk gümüş mükafatı qazanmaq üçün cüdoçumuz Bayram Mustafayevə nəsib oldu. Atletimiz Ramil Qasımov isə bütün yarışları uğurla başa vuraraq Azərbaycanın hesabına ilk qızıl əyarlı mükafatı yazdırdı. 81 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçumuz Rövşən Səfərovun qazandığı bürünc medal da sevindirici idi. Daha sonra qələbə estafetini atletimiz Yelena Çebanu davam etdirdi. Gümüş medala sahib olan Yelena da yaxşı idmançı olduğunu bir daha sübut etdi. Yeri gəlmişkən deyək ki, Yelena Çebanu bundan əvvəl 100 metr qaçışda gümüş, 200 metr qaçışda isə bürünc medala layiq görülmüşdü.

Rioda daha bir gümüş medalı üzgüçümüz Dmitri Saley qazanıb. Uzununa tullanma üzrə mübarizə aparan atletimiz

Kamil Əliyev də həmin mükafatın sahibi olub. Digər bir təmsilçimizin - Roman Saleyin də uğuruna sevinməmək olmur. 100 metr məsafəyə arxasüstə üzgüçülüyün qalibi olan Roman gümüşü ilə ölkəmizə 9-cu medalı qazandırıb.

Paralimpiyaçılarımızın uğurlu çıxışları hər birimizi ürəkdən sevindirir. İnanırıq ki, idmançılarımız qalan digər oyunları da uğurla başa vuraraq ölkəmizin medal sayını daha da artıracaqlar.

F.AĞAYEV

Əliağa Kürçaylının söz dünyası

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Əliağa Kürçaylıdır. Onun yazmış olduğu əsərlər poeziyasevərlərin hüsni-rəğbətini qazanmış, ədibə böyük şöhrət gətirmişdir.

Ə.Kürçaylının şeirlərində hər şey sadə və sadə olduğu qədər də səmimidir. Gözəllik də burdadır, sənət və sənətkarlıq da. Şair hansı mətləbə toxunursa toxunsun, yalnız öz duyğusunu qələmə alır. O, istənilən faktı, predmeti müəyyən bir mövzuya çevirə bilən, həmin mövzunu yaradıcılığının qayəsində reallaşdıran, bu reallığı isə sənət səviyyəsinə yüksəltməyi bacaran ədiblərdəndir. Onun şeirlərində bu axıcılıq Kür axarıtək rəvan, Muğanın gözəllikləri kimi cəzbedicidir. Şair ucsuz-bucaqsız düzənliklərdən, göz oxşayan yaşıl çəmənlərdən danışanda misralardan sanki çöl, yamac qoxusu duyulur. Axarlı-baxarlı Kürün sularından söhbət açanda adama elə gəlir ki, indi bizimlə salamlaşan Kürün özüdür. Onun misraları Kürün ləpələri qədər oynaq və çılğındır. Ormanlarda bitən əlvan çiçəklərin ətri də elə bil bu sözlərə hopub və bu sözləri dilə gətirdikcə insanın qəlbi üfüqlərdə oyanan günəş kimi işıqlanır:

Salam, doğma kəndim, əziz oylaqlar,
Görünür, könlümü sıxıb uzaqlar.
Ay gümüş söyüdlər, ağcaqovaqlar,
Sizsiz köksümü çox ötürmüşəm mən.
("Kəndimizə gəldiyim gün")

Yaxud aşağıdakı misralara diqqət yetirək:

Tarlalı, zəmili bizim çölləri
Nəğməsiz gördüyüm bir an olmayıb.
Mən Kürəm, Muğanın təbiətini
Hələ mənim kimi duyan olmayıb.

Ə.Kürçaylının məhəbbət mövzusundakı şeirlərini oxuyarkən düşünmək olar ki, o doğrudan da, məhəbbət şairidir. Lakin təbiət haqqındakı şeirləri ilə tanış olanda bu gözəl misraların sahibini əsl təbiət şairi adlandırmaya bilmirsən. Yaxşılıq, xeyir-xahlıq, saflıq kimi mənəvi dəyərlərdən yazanda, dünyadan, həyatdan deyəndə Əliağa Kürçaylı pirani görkəmi olan müdrik filosof kimi gözlərimizin önündə canlanır. Dostluqdan söz açanda, cəsarətdən, mərdlikdən danışanda artıq o, haqqın carçısı olan humanist bir şəxsiyyətə çevrilir. Ən başlıcası, bütün hiss və düşüncələri ilə qoynunda boy atdığı torpaqdan, canından da əziz sevdiyi yurddan, eldən, obadan deyəndə biz vətəninə sidqi-ürəklə bağlı olan vətənpərvər bir ədibi görür, ona vətən şairi deyirik. Təqdirəlayiq haldır ki, bütün bu keyfiyyətlərin hər biri onun şəxsiyyətində formalaşmışdır. Bu mənada şair şeirlərindən həm də özünü yaratmışdır. "İstərəm" şeirində olduğu kimi:

Mən sənin eşqinin asimanında
Aya, ulduzlara çatmaq istərəm.
Min-min səadəti boyunbağı tək
Mən sənin boynuna asmaq istərəm.

Başqa bir şeirində isə öz könül hisslərini bu cür bəyan edir:

Məhəbbət yolunda yorulmur ürək,
Göyün intəhasız dərinliyinə
Hazıram şığıyam, baş vuram yenə,
Gedəm görünməyən ulduzlaradək.

Bu bədii nümunələrdə məhəbbətlə döyünən şair ürəyinin həssas duyğuları dilə gəlir, sevgi hissləri öz təbiiliyi ilə tərənnüm olunur.

Aşağıdakı misralarda isə bədii fikirlər bir təbiət lövhəsini xatırladır:

Duman çöküb qaşdan-qaşa,
Örtüb dağı başdan-başa.
Kəklik uçur daşdan-daşa
Qanadını çala-çala.

Yaxud aşağıdakı şeir parçacına diqqət yetirək:

Dost, bu ali həqiqətə sən də inan:
Yüz alçaqlıq boy atsa da ucalmayır.
Gəncliyində ləyaqətlə yaşamayan
Təmiz, müdrik insan kimi qocalmayır.

Səmimiyyətlə yazılmış bu misralarda insanlıq, həyat haqqında fikirlər şeirin bədii estetikası ilə üst-üstə düşür.

Ya qonaq, ya qərib, ya səyyah ol sən,
Harda könül açan mahnı eşitsən,
Dinləsən ürəkdən qopan bir hava,
Görsən qonaq sevən bir el, bir oba,
Görsən açıq ürək, mehriban sifət,
Görsən təmiz duyğu, təmiz məhəbbət,
Deməli, əzizim, bizim eldəsən,
Şirvanda, Muğanda, ya da Mildəsən.
Ya Kürün, Arazın qırağındasan...
Bir söz — Azərbaycan torpağındasan.

"Bizim el" şeirində şair vətən gözəlliklərini bədii boyalarla tərənnüm etməklə yanaşı, insanları vətəni sevməyə, ana torpağı göz bəbəyi kimi qorumağa çağırır, insan övladını əsl vətən övladı kimi görmək istəyir.

Poeziya sirli bir aləmdir. Ə.Kürçaylı isə bütün sənəti və özünəxas qüdrəti ilə bu aləmin sirlərinə yaxından bələd olan, bu aləmin köksündə qərar tutan fədaidir. Şairin yaradıcılığına məxsus hər nə varsa, bu poetik vüsətdə gerçəkləşir. Hiss və duyğularında da, fikir və düşüncələrində də, əqidə və məsləkində də, arzu və amalında da o, heç kəsi xatırlatmır, oxucu yalnız şairin özünü görür, onunla danışır. Görkəmli ədəbiyyatşünas, akademik Bəkir Nəbiyev Ə.Kürçaylının yaradıcılıq dünyası ilə bağlı söz açarkən belə bir fikri diqqətə gətirir: "Bu misraların mahiyyəti yalnız şair əməyinin xüsusiyyətini, onun yaradıcılıq əzablarını, uğurlardan doğan fərəh duyğularını əks etdirməsində deyil, burada biz Ə.Kürçaylını xalqla, onun həyatı, mənəviyyatı ilə, tariximizin ibrətamiz səhifələri ilə, nəhayət, müasir həyatımızla möhkəm bağlayan tellərin qədirşünaslıqla qiymətləndirildiyini görürük." Böyük alimin irəli sürdüyü bu fikirdə böyük də həqiqət var.

Kürçaylı hər bir şeirində oxucunu düşündürür. Onun şeirləri oxucu qəlbinə üz tutan nurlu bir yoldur. Bu yolun işığı insan ürəyini təzələyir, onu sevindirir, onu yaşadır:

... Mən sənin yaşanmış dəqiqələrin,
Hələ yaşanacaq ayın, ilinəm.
Mən sənin məhəbbət adlı əsərin,
Sevgi xallarıyla ötən dilinəm.
("Əbədiyyət")

Şairin şeirlərində ən ümdə cəhətlərdən biri nikbinlikdir. Hətta kövrək məzmunda yazılan şeirlərində də bir ümid, bir həyat, nikbinlik var. O, kədərli şeirində də cəsarətli, hünərpərvərdir. Bu isə hər kəsi açılan yeni sabahlara aparır, insanı həyatdan, dünyadan küsməyə qoymur. Kürçaylının lirik şeirlərində məna tutumu, fikir düzümü orijinaldır. Bu poetik nümunələrdə məzmun bədii-estetik gözəllikləri ilə əsərin ruhunu doğunlaşdırır. Burada süjet və kompozisiya yüksək sənətkarlıqla yaradılır. Diqqəti cəlb edən xüsusiyyətlərdən biri bədii əsərin forma baxımından dürüst və səlis biçimidir. Məhz məzmun və forma vəhdətinin bitkinliyi şeiri sənət əsəri səviyyəsinə yüksəldən ədəbi qanunauyğunluqdur. Filologiya elmləri doktoru, professor Abbas Hacıyev "Mənim taleyimə nəğmə yazardı" adlı məqaləsində yazır: "Bədii əsərin formasını, üslub xüsusiyyətlərini müəyyən edən həyatdır, zamandır, əsrdir. Lakin həyat sənət adamına hazır forma vermir. Məzmun kimi forma da ciddi yaradıcılıq axtarışları tələb edir. Şeirin ənənəsini yaxşı bilən Əliağa Kürçaylı həyatla əlaqəsini qırmır, fasiləsiz müşahidə, axtarış aparır." Doğrudan da, hər bir sənət əsərinin forması onun məzmunu ilə tam uyğunluq yaratmalı, məzmun və forma bir-birini tamamlamalıdır. Ə.Kürçaylı yaradıcılığında da janr, ölçü, daxili bölgü, qafiyə sistemi və digər cəhətlər dəqiqliklə nizamlanmış, bu da onun qələmə aldığı əsərlərin bədii gücünü, estetik dəyərini artıran əsas amilə çevrilmişdir.

Zaur ƏRMUĞAN,
şair, publisist

NARKOMANİYANIN FƏSADLARI – BUNLARI HAMI BİLMƏLİDİR

Demək olar ki, hamı narkotikin necə ziyanlı olduğu barədə bilir. Buna baxmayaraq onun toruna düşənlərin sayı durmadan artır. Bunun əsas səbəblərindən biri də narkotik maddələrin insanı və onun həyatını necə şikəst etməsi barədə məlumatın azlığı, kifayət qədər olmamasıdır.

Tibbi praktika göstərir ki, narkomaniyadan müalicə olunmaq çox çətindir. Narkotikdən asılılıq ondan bir və ya bir neçə dəfə istifadə etməklə baş verir, lakin onun caynaqlarından qurtulmaq çox az adama nəsib olur. Hətta narkotikdən can qurtarmaq barədə güclü iradə yaransa da bunu etmək çox çətin olur və uzun vaxt tələb edir. Buna görə də ən yaxşı həll yolu narkotikə toxunmamaq, ondan uzaq olmaqdır.

Narkotik maddə ilk növbədə narkomanın sağlamlığına ziyan vurur. Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün düşməsinə səbəb olur. Orqanizmin zəhərlənməsi daxili orqanların — qaraciyər və böyrəyin zəhərlənməsinə gətirib çıxarır. Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatitdir. Ən qorxulu xəstəliklər orqanizmə qan vasitəsilə daxil olur və vena vasitəsilə qəbul olunan narkotiklərdən istifadə edən narkomanlar bununla tez-tez rastlaşırlar.

Demək olar ki, bütün narkomanlar kollektiv şəkildə "iynələnirlər". Aydındır ki, yanındakının xəstəliyinə yoluxmamaq ehtimalı sıfırdır. Bu zaman hər bir xəstəliyə yoluxmaq olur, o cümlədən də QİÇS xəstəliyinə. Lakin narkoman tək olduqda belə bu xəstəliklərə yoluxa bilər. Özü də heç vaxt təmiz mal olmur. Həmişə qarışıq olur. Bu da narkoman üçün çox qorxuludur. Onun baş beyninin qabığı 7 dəqiqədən sonra ölməyə başlayır. Əlbəttə, bütün qabıq birdən ölmür, bu yavaş gedən prosesdir. Buna görə də bir çox narkoman yaşamaqda qalır. Amma onlar natamam insan olurlar. Elələri olur ki, hərəkət edə bilmir, heç bir reaksiya göstərmir, düşünmür. Onların beyni ancaq fizioloji prosesləri idarə edir. Onları yedirtdikdə yeyirlər, amma əşyalardan istifadə edə bilmirlər, danışa bilmirlər və beləcə illərlə ölü ömrü yaşayırlar.

Narkotikin olmaması əsəbiləşməyə və hirslənməyə gətirib çıxarır. Böyük narahatçılıq başlayır. İnsan artıq bir işlə məşğul ola bilmir. Sonrakı "doza" üçün hər bir alçalmaya, iyrənc hərəkət eləməyə məcbur olur. Narkotik qəbul etdikdə ədəbsizlik və yalançılıq başlayır. Bütün maraqları, ümidləri və qarşısına qoyduğu məqsədləri getdikcə sönür. Beləliklə yalnız yeni dozanı qəbul etmək haqqında düşünürlər və bunun üçün ən ağır cinayətlərdən belə çəkinmirlər. Əbəs yerə deməyiblər ki, narkomaniyadan cinayətə cəmi bir addımdır.

Narkotik maddələrin qəbulu, narkomanlıq insanın fiziki sağlamlığına da çox ciddi ziyan vurur. Baş beyindəki və mərkəzi sinir sistemindəki dəyişiklik erkən ağılitirmənin yaranmasına gətirib çıxarır, yuxusuzluğa, sayıqlamaya səbəb olur. Hallüsinasiya (qorxu, xəyal görmə, nə isə eşitmə) hallarını yaradır. Həzm sistemində isə bu ürəkbulanma, qusma, qarın ağrıları, qəbizlik, mədə və bağırsaq spazmaları, qastrit, xora kimi xəstəliklərlə özünü göstərir. Qaraciyər və böyrəklər narkotik maddələrin qəbulunda ən çox ziyan çəkən orqanlardır. Onlar öz funksiyalarını itirdiyindən orqanizm getdikcə daha çox zəhərlənməyə məruz qalır. Narkotik maddələr göz bəbəyinin böyüməsinə və ya kiçilməsinə, çəpliyin yaranmasına, göz iflici kimi ağır xəstəliyin yaranmasına da səbəb olur, tənəffüs sistemində ciddi dəyişikliklər yaradır, bütövlükdə insan orqanizminin normal fəaliyyətini pozaraq ağır nəticələrə gətirib çıxarır.

Statistikaya görə dünyada 110 milyon nəfər ən azı ayda bir dəfə narkotikdən istifadə edir və təxminən 25 milyon nəfər narkoman var. Narkotik maddələrə aludəçilik maddi mənfəətin itirilməsinə, müalicə üçün böyük xərclərin sərf olunmasına, ailələrin dağılmasına səbəb olur. Buna görə də cəmiyyət həyatına böyük maddi və mənəvi ziyan vuran, insanları, insanlığı şikəst edən, onu cinayətə sürükləyən bu ağır bəlaya qarşı mübarizə təkcə ayrı-ayrı ölkələrdə deyil, beynəlxalq miqyasda genişlənməkdə, güclənməkdədir.

Dövlət səviyyəli, beynəlxalq miqyaslı mübarizə öz yerində. Gərək insanlar özləri də narkomaniyanın necə ağır bəla olduğunu anlasınlar, ondan uzaq olmağa çalışsınlar. Həyatı kifayət qədər anlaya bilməyən gənclərin bu yoldan çəkindirilməsi xüsusilə vacibdir. Sabahımız, gələcəyimiz onlarla bağlı olduğundan gənclər daha sağlam, daha saf ruhda böyüməlidirlər.

Ataş İMANZADƏ,
rayon mərkəzi xəstəxanasının tibb işçisi, xəstəxananın "Şəfa" divar qəzetinin redaktoru

Neftçala şəhər sakini Xalid Azad oğlu Səmədova məxsus "İCTAS" MMC-yə 5 saylı Ərazi Vergilər İdarəsi tərəfindən verilmiş 26 may 2010-cu il tarixli, 6500273651 nömrəli VÖEN şəhadətnaməsi itdiyinə görə etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi iş yoldaşları, başçının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqovaya, əzizi

AYXANIN

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları İbrahim Nurluya, həyat yoldaşı

ELMİRA XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları Səmədağa Səmədova , qardaşı

AĞAVERDİ SƏMƏDOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "FUTBOL+SERVİS" mətbəəsində çap olunmuşdur.
Dizayn Fərhad Ağayevin,
fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 600 Sifariş №27
Bir nömrənin qiyməti: 40 qəpik.